Səid Rüstəmov Azərbaycanda ilk notlu xalq çalğı alətləri orkestrinin uzun müddətli dirijoru kimi milli dirijorluq sənətinin formalaşmasında mühüm rol oynamışdır. O, orkestrin repertuarını zənginləşdirmiş, ifaçılıq səviyyəsini yüksəldərək Azərbaycan musiqi mədəniyyətinin inkişafına mühüm töhfə vermişdir. Professor E.Abbasova yazır: "*Orkestr 1 may 1931-ci ildə Azərbaycan bəstəkarlıq məktəbinin banisi, dahi Üzeyir Hacıbəylinin rəhbərliyi və Müslüm Maqomayevin*

təşəbbüsü ilə təşkil edilmişdir. Şərqdə simfonik orkestr prinsipi ilə yaradılmış ilk xalq çalğı alətləri orkestri olan bu kollektiv Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynamışdır. Orkestrin ilk tərkibi tar, kamança, balaban, dəf və nağaradan ibarət olmuşdur. Lakin, sonrakı illərdə Səid Rüstəmovun rəhbərliyi ilə orkestrin tərkibinə tütək, zurna, qoşanağara, dəf, qanun və ud daxil edilmişdir. Səid Rüstəmov xalq çalğı alətləri orkestrinin tərkibində milli alətlərin üstünlük təşkil etməsini dəstəkləyir, Avropa alətlərinin orkestrin milli səslənməsinə xələl gətirə biləcəyini iddia edirdi” (Abasova E, 1975: 48-49). 2000-ci ildə Azərbaycanda daha bir xalq çalğı alətləri orkestri – F.Əmirov adına Əməkdar kollektiv yaradılmışdır. Yarandığı gündən orkestr bir çox dövlət əhəmiyyətli tədbirlərdə çıxışlar etmiş, beynəlxalq festivallarda uğurlar qazanmışdır. Belə ki, 2004, 2005 və 2010-cu illərdə İranda keçirilən ənənəvi “Fəcr” Beynəlxalq musiqi festivallarında “Qızıl Çəng” mükafatına layiq görülmüşdür. Belarusiya, Moldova, Tacikistan, Ukraynada keçirilən mədəniyyət günlərində tamaşaçıların böyük rəğbətini qazanmışdır. Bir çox xarici ölkələrdə qastrol səfərlərində olmuşdur.

Rusiyada V.V.Andreyev adına xalq çalğı alətləri orkestrinə müxtəlif dövrlərdə N.M.Selitski, S.V.Yeltsin, A.V.Mixaylov, A.Y.Aleksandrov, Q.A.Doniyax, V.P.Popov kimi görkəmli dirijorlar rəhbərlik etmişdir. Orkestrlə həmçinin D.İ.Poxitonov, E.P.Qrikurov, K.İ.Eliasberq, L.Stokovski kimi dünya şöhrətli dirijorlar çalışmışdır. Vyanada Hans Rixter, Qustav Maler, Rixard Ştraus, Feliks Vaynqartner, Vilhelm Furtvenqler kimi dirijorlar Vyana Filarmoniya Orkestrinin inkişafında mühüm rol oynamışdır. Rixard Ştrausun rəhbərliyi dövründə (1906-1944) orkestr dünyanın 1 nömrəli orkestri adına layiq görülmüşdür.



Şəkil 4. *V.V.Andreyev adına xalq çalğı alətləri orkestri*

Orkestrlərin qastrol fəaliyyətinin müqayisəsini təqdim edək:

Cədvəl № 2. Dünya və Asiya ölkələrinin orkestrlərin qastrol fəaliyyəti

Ölkə	XX əsr	XXI əsr
Azərbaycan	Rusiya, Gürcüstan, Türkdilli dövlətlər	Dünyanın bir çox ölkələri
Türkiyə	Əsasən Türkdilli dövlətlər	Şərq ölkələri, Azərbaycan
Özbəkistan	Rusiya, Tacikistan, Tatarıstan, Koreya, Azərbaycan	Ölkədaxili, Şərq ölkələri, Rusiya
Türkmənistan	Rusiya, Tacikistan, Tatarıstan, Koreya, Azərbaycan	Rusiya, Şərq ölkələrində
Qırğızıstan	Rusiya, Türkdilli dövlətlər	Rusiya, Şərq ölkələrində
Qazaxıstan	Rusiya, Türkdilli dövlətlər, Çin	Dünya ölkələri
Rusiya	SSRİ şəhərləri, dünya ölkələri	Dünya ölkələri
Vyana Filarmoniya	Paris, dünya ölkələri	Dünyanın bütün ölkələri, o cümlədən Azərbaycan ölkələri
Bilkent Simfonik orkestri	Dünya ölkələri	Dünya ölkələri

Özbəkistan xalq çalğı alətləri orkestrinin beynəlxalq fəaliyyəti xüsusilə maraqlıdır. Orkestr 1965-ci ildə Tacikistanda konsert verərək özbək bəstəkarı Yudakovun bəstələdiyi Tacikistan Respublikasının Dövlət himnini ifa etmişdir. Rus musiqişünası İ.Dzerjinski bu hadisəni "böyük bir yenilik" adlandırmışdır. Orkestr həmçinin Tatarıstanda keçirilən "Mahnı İncəsənəti" müsabiqəsində özbək bəstəkarı Y.Şerfendirovun tatar folkloru əsasında bəstələdiyi mahnıları, 1971-ci ildə Koreyada keçirilən Mahnı Ongünlüyündə isə özbək bəstəkarı Rak Endinin koreya mövzusunda bəstələdiyi əsərləri ifa etmişdir.



Şəkil 5. *Özbəkistan xalq çalğı alətləri orkestri*

Müasir dövrdə orkestrlərin fəaliyyəti

Azərbaycanda Səid Rüstəmov və Fikrət Əmirov adına xalq çalğı alətləri orkestrləri bu gün də fəaliyyət göstərir. Bu orkestrlərin konsert proqramı olduqca geniş olub, repertuara müxtəlif janrlı əsərlər daxildir. Son illərdə orkestrlərdə xarici ölkə bəstəkarlarının əsərlərinə üstünlük verilərək, bu əsərlər milli musiqimizlə sintez şəklində təqdim olunur ki, bu da dinləyicilər tərəfindən uğurla qarşılanır.

Özbəkistan xalq çalğı alətləri orkestrinin tərkibində Avropa alətləri iştirak etmir və bu qərar orkestrin yarandığı ilk dövrlərdə qəbul edilmiş və hazırda da qüvvədədir. Türkmənistanda P.Sarıyev adına Türkmənistan xalq çalğı alətləri orkestri Filarmoniyanın nəzdində müasir dövrümüzə kimi fəaliyyət göstərir. Lakin tədqiqatlar göstərir ki, türkmən xalqının musiqi mədəniyyətinin çox zəngin və qədim bir tarixə malik olmasına baxmayaraq, milli musiqi alətlərinin təkmilləşdirilməsi sahəsində mühüm addımlar atılmamışdır. Qazaxıstanda Kurmanqazı adına Qazaxıstan xalq çalğı alətləri orkestri müasir dövrümüzdə də ölkənin mədəni həyatında fəal iştirak edir.

Vyana Ştraus Festival Orkestri hazırda dünyanın ən məşhur orkestrlərindən biridir. Hər il yanvar ayının 1-də məşhur Vyana bal festivalı bu orkestrin iştirakı ilə açılır. Orkestrin konsert cədvəli bir-neçə il əvvəlcədən tərtib edilir, Yeni il axşamı konserti 70 telekanal, 300 radiodalğa və 50 milyon insan tərəfindən izlənilir. Vyana Ştraus festival orkestri dəfələrlə ölkəmizdə də konsert-qastrol səfərində olmuş, maraqlı çıxışlarla dinləyicilərin rəğbətini qazanmışdır. 2014, 2016, 2018-ci illərdə Bakıda Heydər Əliyev Mərkəzində Peter Qutun rəhbərliyi ilə Vyana Ştraus Festival Orkestrinin konserti keçirilmişdir. Konsertdən əvvəl Peter Qut Heydər Əliyev Mərkəzində artıq dördüncü dəfə çıxış etməkdən məmnunluğunu bildirib. O, proqramda dünya şöhrətli avstriyalı bəstəkar, “valsın kralı” İohann Ştrausun, həmçinin digər Vyana klassiklərinin: İohann Ştraus, Yozef Lanner, Robert Stolz, Yozef Ştraus, Eduard Ştraus və Karl Mixael Tsirerin əsərlərinin yer aldığını diqqətə çatdırıb. Peter Qut Ştraus dövrünün ənənələrinə sadiq qalaraq konsert zamanı həm violində ifa edib, həm də dirijorluq edib. Məşhur əsərlərin yüksək peşəkarlıqla təqdim olunduğu, tamaşaçılarla səmimi ünsiyyət şəraitində keçən konsert maraqla qarşılanıb.

Orkestr modellərinin tipologiyası

Aparılan təhlil nəticəsində dünya orkestr modellərini üç əsas tipə bölmək olar:

1. Tamamilə milli model (Özbəkistan tipi): Bu modeldə orkestrin tərkibinə heç bir Avropa aləti daxil edilmir. Üstünlük yalnız milli alətlərə verilir. Bu modelin üstünlüyü milli koloritin maksimum dərəcədə qorunmasıdır. Çatışmazlığı isə dünya klassikasının əsərlərini ifa etmək imkanının məhdud olmasıdır.

2. Sintez modeli (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tatarıstan tipi): Bu modeldə milli alətlərlə yanaşı, bəzi Avropa alətləri də orkestrin tərkibinə daxil edilir. Bu, həm milli musiqinin, həm də dünya bəstəkarlarının klassik əsərlərini ifa etməyə imkan verir. Lakin, düşünürük ki, Avropa alətlərinin milli musiqinin

səslənmə ahənginə mənfi təsir etməməsi üçün diqqətli olmaq, yalnız ehtiyac yarandıqda Avropa alətlərindən istifadə etmək lazımdır.

3. Avropa simfonik modeli (Vyana tipi): Bu modeldə orkestrin tərkibi tamamilə Avropa alətlərindən ibarətdir. Repertuarın əsasını dünya bəstəkarlarının klassik əsərləri təşkil edir. Xalq musiqisi bu modeldə demək olar ki, yer almır.

Orkestr modellərinin inkişafına təsir edən əsas amillər:

1. Sovet hakimiyyəti dövründə Orta Asiya və Qafqaz xalqlarının musiqi mədəniyyətinin inkişafına dövlət səviyyəsində diqqət yetirilmişdir. Bu dövrdə konservatoriyalar, filarmoniyalar, musiqi məktəbləri açılmış, xalq çalğı alətləri orkestrləri yaradılmışdır.

2. Hər bir ölkənin xalq çalğı alətləri orkestrinin inkişafında orkestrin rəhbərinin rolu böyük olmuşdur. Azərbaycanda Üzeyir Hacıbəyli və Səid Rüstəmov, Özbəkistanda N.M.Mironov, Qazaxıstanda Ə.K.Jubanov, Qırğızıstanda P.F.Şubin, Vyanada H.Rixter və R.Ştraus bu orkestrlərin formalaşmasında və inkişafında həlledici rol oynamışlar.

3. Hər bir xalqın musiqi ənənələri orkestr modelinin formalaşmasında mühüm rol oynamışdır. Məsələn, Özbəkistanda milli alətlərə daha çox üstünlük verilməsi bu ölkənin zəngin musiqi ənənələri ilə bağlıdır.

Bütün orkestr modelləri müasir dövrdə müəyyən çağırışlarla üzləşir:

1. Dünya musiqisinin qloballaşması orkestrlərin repertuar siyasətinə təsir edir. Xalq çalğı alətləri orkestrləri dünya musiqisi ilə rəqabət aparmağa məcburdurlar.

2. Xalq çalğı alətlərində peşəkar ifaçıların hazırlanması mühüm problem olaraq qalır. Bu sahədə təhsilin inkişaf etdirilməsi vacibdir.

3. Müasir dinləyicinin tələblərinə cavab verən yeni repertuarın yaradılması zərurəti vardır. Bu, həm milli bəstəkarların, həm də dünya bəstəkarlarının yeni əsərlərinin orkestr repertuarına daxil edilməsini tələb edir.

Bilkent Simfonik Orkestri 1993-cü ildə Bilkent Universitetinin özəl layihəsi əsasında qurularaq, Türkiyənin ilk akademik və beynəlxalq orkestri xüsusiyyətini daşıyır. Hal-hazırda orkestrin 120 nəfərdən çox üzvü var ki, onların əksəriyyətini Bilkent Universitetinin Musiqi sənətləri fakültəsinin müəllim heyəti təşkil edir. Arif Möhsünoğlu vurğulayır: "*Bilkent Simfonik Orkestri çoxsaylı festivallarda uğurlu çıxışlar etmişdir. Orkestrin konsert proqramları klassik əsərlərlə yanaşı xalq musiqi üzərində qurulmuşdur. Qastrol səfərlərində orkestrin müşayiəti ilə vokal ifaçıları Pekin Qırğız və Hakan Aysev klassik ariyalar səsləndirirdilər. Bariton-Məsud İktu isə Adnan Sayqunun xalq mahnılarını simfonik orkestrin müşayiəti ilə ifa etmişdir. Beləliklə, orkestr təkcə klassik musiqini ifa etməklə kifayətlənmir, eyni zamanda orijinal xalq musiqisini də yerli dinləyicilərinə təqdim edir ki, bu da Bilkent Simfonik Orkestrinin təkcə klassik musiqini deyil, həm də xalq musiqisi mədəniyyətini təmsil etdiyini göstərir*" (Möhsünoğlu A, 2017: 1105-1117).

Orkestr hər il dünyanın müxtəlif ölkələrində 50-dən çox konsert proqramları ilə çıxış edir.

1. Hər iki model (Bilkent və Şərq xalq orkestrləri) milli musiqi mədəniyyətinin inkişafında və təbliğində mühüm rol oynayır;

2. Bilkent orkestri dünya klassiklərinin əsərləri ilə yanaşı Türk bəstəkarlarının əsərlərini (Türk Bestecileri Haftası çərçivəsində) səsləndirməklə, milli musiqinin qorunmasına töhfə verir;

3. Beynəlxalq qastrol fəaliyyəti bütün bu orkestrlər üçün xarakterikdir.

Bilkent Simfonik Orkestri tamamilə Avropa alətlərindən ibarət olan klassik simfonik orkestr modelini təmsil edir. Bu baxımdan o, Vyana modeli ilə eyni tipə aiddir. Lakin təhlil edilən Şərq xalq çalğı alətləri orkestrlərindən əsaslı şəkildə fərqlənir. Bilkent orkestri özəl və akademik təşəbbüs kimi yaradılmışdır. Şərq xalq orkestrləri isə əsasən dövlət dəstəyi ilə (filarmoniyalar, radio komitələri nəzdində) formalaşmışdır. Vyana Filarmoniyası isə tarixən opera orkestrindən yaranmışdır.

Bilkent orkestrinin repertuarının əsasını dünya klassik musiqisi təşkil edir (Mosart, Bethoven, Rixard Ştraus, Maler və s.). Bu baxımdan Bilkent modeli Vyana modelinə daha yaxındır. Şərq xalq çalğı alətləri orkestrlərində isə repertuarın əsasını milli xalq musiqisi təşkil edir. Bilkent orkestri 12 fərqli ölkədən gəlmiş musiqiçiləri özündə birləşdirən beynəlxalq tərkibə malikdir. Vyana Filarmoniyası əsasən Avropa musiqiçilərindən, Şərq orkestrləri isə əsasən yerli milli kadrlardan ibarətdir.

Bilkent orkestri 40-dan çox CD buraxmış, EMI, CPO kimi məşhur səsyazma şirkətləri ilə əməkdaşlıq etmişdir. 2009-cu ildə UNICEF Türkiyə İyi Niyət Elçisi elan edilmişdir. Bu göstəricilərə görə Bilkent orkestri Vyana modelinə yaxınlaşır.



Şəkil 6. *Bilkent simfonik orkestri*

Nəticə:

Aparılan müqayisəli təhlillər göstərir ki, hər bir ölkənin orkestri özünəməxsus xüsusiyyətlərə malikdir və bu xüsusiyyətlər həmin ölkənin musiqi ənənələri,

tarixi inkişaf yolu və mədəni siyasəti ilə bağlıdır. Azərbaycan xalq çalğı alətləri orkestri sintez modelinin ən uğurlu nümunələrindən biridir. Bu orkestr həm milli musiqi ənənələrinin qorunmasına, həm də dünya musiqi irsinin mənimsənilməsinə imkan verir. Üzeyir Hacıbəyli və Səid Rüstəmovun rəhbərliyi ilə formalaşan orkestr bu gün də öz fəaliyyətini davam etdirir. Özbəkistan xalq çalğı alətləri orkestri milli orkestr modelinin ən bariz nümunəsidir. Orkestrin tərkibinə heç bir Avropa alətinin daxil edilməməsi milli koloritin maksimum dərəcədə qorunmasına imkan versə də, dünya klassik nümunələrini ifa etmək imkanını məhdudlaşdırır.

Türkmənistan xalq çalğı alətləri orkestrinin tərkibinə avropa alətləri daxil edilmiş, lakin milli alətlərin təkmilləşdirilməsi sahəsində kifayət qədər iş aparılmamışdır. Vyana orkestri Avropa simfonik orkestr modelinin ən yüksək nailiyyətidir. Bu orkestr əsrlər boyu formalaşaraq, dünya musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir. Müqayisəli təhlil göstərir ki, orkestrlərin inkişafı üçün ən optimal yol sintez modelidir – milli ənənələri qoruyub saxlamaqla yanaşı, dünya təcrübəsindən bəhrələnmək. Azərbaycan bu yolda mühüm uğurlar əldə etmiş və bu gün də bu istiqamətdə inkişaf edir. Bilkent Simfonik Orkestri Avropa simfonik orkestri ilə eyni kateqoriyaya aid olub, tamamilə Avropa alətlərindən ibarət, repertuarının əsasını dünya klassik musiqisi təşkil edən peşəkar simfonik orkestrdir. Lakin, onun özəl və akademik təhsil müəssisəsi nəzdində yaradılması, həmçinin Türk bəstəkarlarının əsərlərinə xüsusi diqqət yetirməsi kimi özünəməxsus xüsusiyyətləri vardır. Şərq xalq çalğı alətləri orkestrlərindən fərqli olaraq, Bilkent orkestri milli musiqinin qorunması və təbliği məqsədini sintez modeli ilə deyil, müasir simfonik orkestr vasitəsilə həyata keçirir. Bu, onun təhlil edilən digər orkestr modelləri arasında özünəməxsus yerini müəyyən edir. Araşdırmalar göstərir ki, orkestr modellərinin inkişafında əsas meyar milli ənənələrlə dünya təcrübəsinin vəhdətidir. Azərbaycan xalq çalğı alətləri orkestri sintez strategiyasının ən uğurlu nümunəsi kimi həm milli koloriti qoruyur, həm də dünya klassik musiqisini mənimsədir.

ƏDƏBİYYAT:

1. Hacıbəyov Ü.Ə. Azərbaycan musiqi tərəqqisi // "Elmi əsərlər". II cild. Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının nəşriyyatı, 1965, s. 223-230.
2. Möhsünoğlu A. Bilkent senfoni orkestrasının Türkiye'nin müzik hayatındaki rolü // "Abant İzzet Baysal Üniversitesi Eğitim Fakültesi Dergisi", 17(4), 2017, s. 1105-1117.
3. Вызго-Иванова И. Новые пути жанра // "Советская Музыка", 1973, № 2, с. 202-204.
4. Гизатов Б. Казахстанский Государственный оркестр народных инструментов имени Курмангазы. Алма-Ата: Казгослитиздат, 1957, 60 с.
5. Hellsberg C. Demokratie der Könige: Die Geschichte der Wiener Philharmoniker. Mainz: Schott, 1992, 688 p. ISBN 978-3795702366.

AZƏRBAYCAN RƏQS SƏNƏTİ YAZILI MƏNBƏLƏRDƏ

XANBUTOV Mövsüm Anar oğlu
Bakı Xoreoqrafiya Akademiyasının
“İncəsənət” fakültəsinin magistri
Ünvan: Bakı şəhəri, Rəşid Behbudov 75
E-mail: xyusiff@gmail.com
ORCID: 0009-0006-8789-5653

Elmi rəhbər: ***Aysel Məmmədəliyeva***
sənətşünaslıq üzrə fəlsəfə doktoru

DOI: 10.62440/AMK2026-2.s.78-92

Xülasə: *Bu məqalədə Azərbaycan xalq rəqslərinin tarixinin araşdırılmasında yazılı tarixi mənbələrin rolu və əhəmiyyəti müzakirə edilmişdir. Erkən dövrlərdə rəqslər əsasən mərasimlər, toylar və bayramlar kontekstində təsvir olunmuş, musiqi və hərəkət vəhdəti ilə xarakterizə edilmişdir. XIX-XX əsrlərdə etnoqrafik və maarifçi mənbələr xalq rəqslərinin sistemli təsnifatının və elmi tədqiqinin inkişafına imkan yaratmışdır. Azərbaycanın görkəmli balet ustası Qəmər Almaszadənin (1915-2006) tədqiqat fəaliyyəti folklor nümunələrinin yazılı təsviri, struktur və icra xüsusiyyətlərinin sistemləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Sovet və müstəqillik dövrü tədqiqatları isə rəqsin yazılı elmi əsaslarını genişləndirmiş və peşəkar səhnə, eləcə də tədris sahələrində tətbiqinə zəmin yaratmışdır. Araşdırmalar göstərir ki, Azərbaycan rəqsi milli mədəniyyətin ayrılmaz və funksional komponenti kimi dəyərlidir.*

Açar sözlər: *folklor, etnoqrafiya, musiqi, rəqs, ənənə, mərasim, yazılı mənbələr, sistemli təsnifat, milli mədəni irs*

АЗЕРБАЙДЖАНСКОЕ ТАНЦЕВАЛЬНОЕ ИСКУССТВО В ПИСЬМЕННЫХ ИСТОЧНИКАХ

ХАНБУТОВ Мовсум Анар
Магистрант Бакинской Хореографической Академии

Аннотация: *В статье рассматривается роль и значение письменных источников в исследовании истории азербайджанских народных танцев. В ранние периоды танцы, как правило, описывались в контексте церемоний, свадеб и праздников и характеризовались единством музыки и движения. В XIX–XX веках этнографические и просветительские источники способствовали систематической классификации народных танцев и их научному изучению. Исследовательская*

деятельность выдающейся азербайджанской балерины Гямар Алмаззаде (1915-2006) имеет особое значение в плане письменного фиксирования фольклорных образцов, анализа их структуры и систематизации особенностей исполнения. Изучение советского и постсоветского периодов расширило научные основы танца и создали предпосылки для его применения на профессиональной сцене и в образовательной практике. Исследования показывают, что азербайджанский танец является неотъемлемым и функциональным компонентом национальной культуры.

Ключевые слова: *фольклор, этнография, музыка, танец, традиция, обряд, письменные источники, системная классификация, национальное культурное наследие*

AZERBAIJANI DANCE ART IN WRITTEN SOURCES

KHANBUTOV Movsum Anar
Master's student of the "Arts"
Faculty of the Choreography Academy

Abstract: *This article discusses the role and significance of written historical sources in the study of the history of Azerbaijani folk dances. In earlier periods, dances were primarily documented in the context of ceremonies, weddings, and festivals, characterized by the integration of music and movement. In the 19th-20th centuries, ethnographic and educational sources facilitated the systematic classification and scholarly research of folk dances. Research activity of the outstanding Azerbaijani ballerina Gamar Almaszadeh (1915-2006) holds particular importance in terms of the written documentation, structural analysis, and systematization of performance features of folkloric examples. Research conducted during the Soviet and post-independence periods further expanded the scientific foundations of dance and laid the groundwork for its application in professional stage and educational practices. Studies demonstrate that Azerbaijani dance represents an integral and functional component of the national culture.*

Keywords: *folklore, ethnography, music, dance, tradition, ritual, written sources, systematic classification, national cultural heritage*

Rəyçilər:
sənətşünaslıq üzrə fəlsəfə doktoru Aysel Məmmədəliyeva;
kulturologiya üzrə fəlsəfə doktoru Elnurə Kazımzadə.

Giriş: Azərbaycan xalq rəqsləri milli-mədəni irsin mühüm tərkib hissəsidir. Onların formalaşması şifahi ənənə və kollektiv yaddaşla sıx bağlıdır. Uzun müddət rəqslər əsasən praktik icra mühitində mövcud olmuş, yazılı təsvirlər isə məhdud xarakter daşımışdır. Müasir elmi yanaşma göstərir ki, rəqslərin sistemli öyrənilməsi üçün yazılı mənbələr mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan erkən tarixi qeydlər, etnoqrafik təsvirlər, maarifçi araşdırmalar və sonrakı elmi tədqiqatlar rəqs sənətinin inkişaf mərhələlərini izləməyə şərait yaradır. Yazılı

mənbələrdə Azərbaycan xalq rəqslərinin əksinin sistemli tədqiq edilməməsi tədqiqatın aktuallığını şərtləndirən əsas amildir.

Tədqiqatın məqsədi Azərbaycan rəqs sənətinin yazılı mənbələrdə əksini araşdırmaq, bu mənbələrin elmi sistemləşmə prosesində rolunu müəyyən etmək və rəqslərin tarixi inkişaf mərhələlərini izləməkdir. Tədqiqatın metodoloji əsasını tarixilik prinsipi, tarixi-müqayisəli və sistemli təhlil metodları təşkil edir. Azərbaycan xalq rəqslərin konkret tarixi mərhələlər kontekstində araşdırılmış, müxtəlif dövrlərə aid yazılı mənbələr müqayisəli təhlil edilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan xalq rəqslərinin elmi əsaslarının formalaşması uzunmüddətli tarixi prosesin nəticəsidir və bu prosesdə həm etnoqrafik mənbələr, həm də peşəkar xoreoqrafiya məktəbinin təşəkkülü mühüm rol oynamışdır.

Tədqiqatın əsas materialı

Azərbaycan xalq rəqsləri milli mədəniyyətin ən qədim qatlarını əks etdirən folklor hadisəsi kimi formalaşmışdır. Rəqs sənəti xalqın tarixi inkişaf mərhələlərində onun dünyagörüşünü, məişət tərzini, sosial münasibətlərini və estetik ideallarını ifadə edən mühüm mədəni mexanizm rolunu oynamışdır. Folklor mühitində yaranan rəqslər ilkin mərhələdə yazılı mənbələrə əsaslanmamış, şifahi ənənə vasitəsilə kollektiv yaddaşda qorunaraq nəsildən-nəslə ötürülmüşdür. Bu baxımdan Azərbaycan rəqsləri yalnız bədii ifadə forması deyil, həm də xalqın mədəni kimliyinin daşıyıcısı kimi çıxış edir. Folklor anlayışı kontekstində rəqs sinkretik sənət növü kimi qiymətləndirilir. Burada musiqi, ritm, hərəkət, mimika və bəzən söz vahid bədii sistem daxilində qarşılıqlı əlaqədə olur. Azərbaycan xalq rəqsləri də bu sinkretik xüsusiyyətinə görə folklorun canlı və dinamik sahələrindən biri hesab olunur. Rəqslərin formalaşdığı folklor mühiti onları statik deyil, daim dəyişən və yenilənən mədəni hadisəyə çevirmişdir. Məhz bu dəyişkənlik rəqslərin müxtəlif bölgələrdə fərqli variantlarda qorunub saxlanılmasına şərait yaratmışdır. Xalqın gündəlik həyatı, əmək fəaliyyəti, təbiət hadisələri və sosial münasibətləri folklor rəqslərinin məzmununun əsas qaynaqlarını təşkil etmişdir. Ov, əkinçilik, maldarlıq və sənətkarlıqla bağlı hərəkətlər zamanla bədii forma alaraq rəqs elementlərinə çevrilmişdir. Bu proses folklor yaradıcılığının təbii inkişaf mərhələsi kimi başa düşülür. Beləliklə, rəqs xalqın həyat tərzinin estetik ifadəsi kimi formalaşaraq folklor sistemində mühüm yer tutmuşdur.

Azərbaycan xalq rəqslərinin əsas xüsusiyyətlərindən biri onların şifahi ənənə üzərində qurulmasıdır. Şifahi ənənə folklor mədəniyyətində biliklərin və bacarıqların yazılı mətnlərdən asılı olmadan ötürülməsini təmin edən əsas mexanizmdir. Rəqslər də məhz bu mexanizm vasitəsilə qorunmuş və inkişaf etmişdir. Rəqsin hərəkət sistemi, tempi, ritmik quruluşu və bədii ifadə vasitələri bir ifaçıdan başqasına müşahidə, təkrar və təcrübə yolu ilə ötürülmüşdür. Kollektiv yaddaş anlayışı bu prosesdə xüsusi əhəmiyyət kəsb edir. Xalq arasında rəqslər yalnız fərdi bacarıq kimi deyil, kollektiv təcrübə kimi yaşadılmışdır. Toylar, bayramlar, el şənlikləri və mərasimlər rəqsin kollektiv şəkildə icra olunduğu əsas sosial mü-

hitlər olmuşdur. Bu mühitlərdə rəqs həm əyləncə, həm də sosial ünsiyyət vasitəsi kimi çıxış etmişdir. Kollektiv icra forması rəqslərin sabit strukturunu qorumaqla yanaşı, onların yeni elementlərlə zənginləşməsinə də şərait yaratmışdır.

Azərbaycan xalq rəqslərinin tarixinin araşdırılmasında yazılı tarixi mənbələr də xüsusi əhəmiyyət kəsb edir. Şifahi ənənə əsasında formalaşmış rəqs mədəniyyəti uzun müddət yazılı sənədlərdə sistemli şəkildə əks olunmasa da, müxtəlif dövrlərə aid salnamələrdə, səyyah qeydlərində, tarixi təsvirlərdə və etnoqrafik müşahidələrdə rəqs və mərasim səhnələrinə dair mühüm məlumatlara rast gəlinir. Bu mənbələr Azərbaycan rəqs sənətinin sosial-mədəni mühitdə tutduğu yeri və funksional rolunu müəyyənləşdirmək baxımından dəyərli materiallar təqdim edir. Azərbaycan coğrafi baxımdan fərqli təbii-iqlim zonalarını, tarixi-mədəni mühitləri və etnik xüsusiyyətləri özündə birləşdirən geniş bir ərazini əhatə etdiyindən, xalq rəqsləri də bu müxtəlifliyin təsiri altında formalaşmışdır. "*Din uğrunda, hakimiyyət uğrunda əsrlərlə aparılan qanlı müharibələr mərd igidlərimizin döyüş meydanlarında göstərdikləri qəhrəmanlıq, feodal dövrünün özünəməxsus qanunauyğunluqları, Azərbaycan ərazisindəki xanlıqlar, saray personajları, at yarışları, pəhləvanların, kəndirbazların müxtəlif tamaşaları, toy mərasimləri, bir çox bayram və el şənlikləri rəqslərimizin yaranmasına çox böyük təsir göstərmiş və onların əsas mövzusuna çevrilmişdir*" (Bəhmənli, 2002: 9). Azərbaycan rəqsləri xalqın həm qəhrəmanlıq tarixini, həm də gündəlik məişət qayğılarını özündə yaşadan unikal yaddaş formasıdır. Bu geniş mövzu dairəsi rəqsin ictimai həyatdakı rolunu artırmış, onu sadəcə ritmik hərəkətlərdən ibarət əyləncə vasitəsi olmaqdan çıxarmışdır. Rəqsin müxtəlif el şənliklərinin və kütləvi məclislərin mərkəzində dayanması, onun tarixi mənbələrdə fərqli adlarla xatırlanmasına səbəb olmuşdur: Tarixi mənbələrdə rəqs çox vaxt "oyun", "şənlik", "məclis" anlayışları ilə eyni kontekstdə işlədilir. "*Oyun tamaşası və süjetli rəqs səhnələri Azərbaycan rəqs folklorunda xüsusi yer tutur*" (Həsənov, 1983: 12).

Bu terminoloji yaxınlıq göstərir ki, rəqs xalqın şüurunda sadəcə əyləncə vasitəsi kimi deyil, müəyyən qaydalara və sosial funksiyaya malik kollektiv fəaliyyət kimi qavranılmışdır. Müəllifin yanaşmasından aydın olur ki, qədim rəqslər yalnız ritmik hərəkətlər toplusu olmayıb, eyni zamanda müəyyən hadisələri canlandıran təmsiledici xarakter daşımışdır. Xüsusilə "oyun tamaşası" formasında ifa olunan bu rəqslər insanların həyat hadisələrini təqlid etməsinə imkan yaratmış, nəticə etibarilə kiçik xalq tamaşaları funksiyasını yerinə yetirmişdir. Rəqsin bu təmsiledici və kollektiv mahiyyəti onun digər sənət sahələri ilə vəhdətdə inkişaf etməsini şərtləndirmişdir. Bu isə rəqsin yalnız fiziki hərəkət deyil, musiqi, söz və hərəkətin birliyi əsasında formalaşan sinkretik mərasim mədəniyyətinin mühüm tərkib hissəsi kimi qəbul olunduğunu göstərir. Belə yanaşma sonrakı dövrlərdə yazılmış etnoqrafik və musiqişünaslıq mənbələrdə də öz əksini tapmışdır.

Erkən yazılı mənbələrdə Azərbaycan ərazisində icra olunan kollektiv hərəkət formalarına xüsusi diqqət yetirilir. Dairəvi və kütləvi hərəkətlərin təsviri təd-

qiqatçılar tərəfindən kollektiv rəqs formalarının ilkin yazılı izləri kimi qiymətləndirilir. Bu təsvirlər yallı və halay tipli rəqslərin tarixi köklərinin yazılı mənbələrdə dolayı yolla əks olunduğunu göstərir (Bax: Şəkil 1. 2.). Belə rəqslər icma birliyinin, sosial həmrəyliyin və kollektiv davranışın bədii ifadəsi kimi təqdim olunur. Dairəvi rəqslərin icrası zamanı hərəkət istiqaməti də çox önəmlidir. Onların bəzisində hərəkət istiqaməti şərqdən qərbə, digərlərində isə qərbdən şərqə doğru olur. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Fazilə Nəbiyeva tədqiqatlarında qeyd edir ki, “*çox mürəkkəb və uzun mərhələli inkişaf yolu keçmiş dairəvi formada ifa olunan kütləvi rəqslər multikultural dünyanın təmas nöqtəsi olduğu üçün həmişə aktualdır*” (Nəbiyeva, 2018: 3). Bu fikirdən çıxış edərək deyə bilərik ki, yallı tipli rəqslərin bu gün qlobal səviyyədə bir həmrəylik rəmzi kimi qəbul edilməsi təsadüfi deyil. Bu aktuallıq rəqsin hələ dil və mədəniyyət amillərinin formalaşmadığı dövrlərdən gələn kollektiv yaddaşın təzahürüdür. F.Nəbiyevanın təsnifatına əsasən, rəqs sənətinin bu “təmas nöqtəsi” funksiyasını anlamaq üçün onun ən qədim, instinktiv dövrünə – yəni insanın özünü ifadə etmək üçün sözə deyil, yalnız səsə və bədən hərəkətlərinə ehtiyac duyduğu mərhələyə diqqət yetirmək lazımdır. Tədqiqatçı rəqsin bu ilkin qatını belə xarakterizə edir: “*Tədqiqatlar göstərir ki, birinci mərhələni “ayin mərhələsi” adlandırmaq olar. Həmin mərhələ erkən dövrə təsadüf etmişdir. Düşünürük ki, bu mərhələdə insan nitqi inkişaf etmədiyi üçün bütün ayinlər qışqırıqlar, çığırtılar, səs təqlidləri, əl və ayaq hərəkətləri – əl çalma, öz buduna vurma, yanındakı ilə əl-ələ vurmaqla müşayiət olunurdu*” (Nəbiyeva, 2018: 11).





Şəkil 1.2. *Kollektiv xalq rəqsi "Yallı"*

Yallı rəqsləri ilə bağlı ilk arxeoloji tapıntılar Azərbaycanın Qobustan və Naxçıvanın Gəmiqaya ərazisində yerləşən qayalıqlar üzərində olan rəsmlərdir ki, 1939 və 1960-cı ildə aşkar edilmişdir. Bu rəqsin tarixi və xoreoqrafiyası ilə bağlı məlumatlar elmi tədqiqatlarda yer alır. K.Həsənov bu rəqsin od ətrafında təşkil edilən ilkin mərasimlərdən gəldiyini hesab edir və onu dünya xalqlarının folklorunda rast gəlinən dairəvi rəqslərin bir növü kimi qiymətləndirir. Alim hesab edir ki, "*bu rəqsin tarixi onun qayaüstü təsvirlərindən daha qədim dövrələrə təsadüf edir*" (Həsənov, 1983: 56).

Kollektiv ifa strukturuna malik olan yallı rəqsləri hər bir nümunəsində fərdi hərəkət plastikasını və özünəməxsus icra qaydalarını ehtiva edir. Təəssüf ki, vaxtilə İrəvanda və ətraf mahallarda azərbaycanlılar tərəfindən yaradılmış zəngin yallı irsi tarixi-siyasi şəraitlə bağlı olaraq ciddi itki təhlükəsi ilə üzləşmişdir. Soydaşlarımızın öz doğma torpaqlarından məcburi deportasiyası, bu rəqslərin canlı daşıyıcılarının ölkənin müxtəlif bölgələrinə pərakəndə şəkildə səpələnməsinə səbəb olmuşdur. İfa mühitindən uzaq düşmə və uzunmüddətli fasilələr nəticəsində İrəvan yallılarının həm xoreoqrafik strukturu, həm də orijinal musiqi yaddaşı tədricən aşınmaya məruz qalmış, bu boşluqdan yararlanan erməni tərəfi isə milli rəqslərimizi mənimsəyərək beynəlxalq səhnələrdə öz adlarına çıxarmışlar. Bu sahədəki elmi boşluğu və mənimsəmə faktlarını tədqiqat obyekti kimi nəzərdən keçirən etnomusiqişünas R.Bəhmənli qeyd edir: "*İrəvanda yaranmış yallı havalarımızın toplanmasında bir tədqiqatçı kimi özümü çox şanslı sayıram. Belə ki, artıq 38 ildir Azərbaycanın demək olar ki, bütün bölgələrini gəzərək, ustad sənətçilərlə, qocaman ifaçılarla görüşərək onların ifasından 500-ə yaxın qədim rəqs melodiyalarını əldə etmiş, onların tarixini, ifa xüsusiyyətlərini, ritmik məziyyətlərini və s. geniş təhlil etmiş və notlaşdırmışam*" (Bəhmənli, 2022: 8). Bu fəaliyyət İrə-

van yallılarının bərpası və milli mədəniyyətimizin qorunması istiqamətində atılmış ən mühüm elmi addımlardan biri kimi dəyərləndirilə bilər.

Toplanmış bu zəngin materialın analizi göstərir ki, rəqs melodiyalarının daxili strukturu onların ifaçı kontingentini – yəni cins və yaş bölgüsünü əvvəlcədən müəyyən edir. Bu nəzəri yanaşma Kamal Həsənovun tədqiqatlarında da mərkəzi yer tutur. Müəllif qeyd edir ki, erkən dövrün yazılı mənbələrindən bəri qadın və kişi rəqslərinin fərqləndirilməsi məhz musiqinin və ritmin xarakterinə əsaslanmışdır. O, rəqsin həm gender, həm də yaş kateqoriyasına görə qruplaşdırılmasını belə əsaslandırır: “*Rəqs melodiyasının xarakteri və tempi – onların kişi və qadın rəqslərinə, qoca və cavanın ifa edəcəyi rəqslərə bölünməsi işində başlıca səciyyəvi cəhətlərdir*” (Həsənov, 1983: 23).

Yazılı mənbələrdə rəqs musiqi ilə ayrılmaz vəhdət təşkil edərək musiqi alətlərinin müşayiəti ilə icra olunan hərəkətlərdən bəhs edilir. Bu fakt rəqs və musiqi münasibətlərinin erkən dövrlərdən mövcud olduğunun sübutudur. Sonrakı dövrlərdə bu əlaqə rəqs havalarının notlaşdırılması, elmi təsnifatı üçün baza rolunu oynamışdır. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəlləri Azərbaycan xalq mədəniyyətinin, o cümlədən rəqs sənətinin yazılı şəkildə sistemli olaraq qeydə alınmağa başladığı mühüm mərhələ kimi xarakterizə edilir. Bu dövrdə etnoqrafiya və folklorşünaslıq elmlərinin inkişafı nəticəsində xalq yaradıcılığına maraq artmış, folklor nümunələri toplanaraq yazılı mənbələrdə təsvir edilmişdir. Azərbaycan rəqs sənəti də bu prosesdən kənarda qalmamış, müxtəlif etnoqrafik qeydlərdə, maarifçi əsərlərdə və elmi məqalələrdə öz əksini tapmışdır.

Azərbaycan xalq rəqsinin estetik və sosial mahiyyəti XIX əsr etnoqrafik qaynaqlarında xüsusi bir mədəni layını təşkil edir. Həmin dövrün mənbələrində rəqs sadəcə bir əyləncə vasitəsi deyil, əhalinin daxili dünyasını, milli temperamentini və məişət ritmini əks etdirən əsas göstərici kimi təsvir olunur. Xüsusilə toy və mövsüm mərasimlərində rəqsin kollektiv ruhu ifadə etməsi, musiqi ilə hərəkətin ayrılmaz vəhdəti bu qeydlərin ana xəttini təşkil edir. K. Həsənovun tədqiqatları da məhz həmin tarixi-etnoqrafik reallıqlara söykənərək, rəqsin xalqın mənəvi həyatındakı mütləq yerini belə səciyyələndirir: “*Azərbaycanlılar rəqs etməyi sevir. Rəqs zamanı onlar tam mənası ilə hərəkətin canlı ritminə, musiqinin cəlbedici şövqünə, bədənin incə və ifadəli zəriflik məharətinə həsr edirlər. Adətən, bayram, təntənə, təbrik məclislərində, ənənə mərasimi və qonaqlıq məclislərində rəqs edirlər. Rəqsə təkan verən, onun üçün məqam yaradan şadlıqların başlıcası toydur*” (Həsənov, 1983: 8).

XX əsrin əvvəllərində maarifçilik ideyalarının geniş vüsət alması milli özünüdərk prosesini sürətləndirmiş, bu da öz növbəsində xalq yaradıcılığına, xüsusən də folklor irsinə baxış bucağını fundamental şəkildə yeniləmişdir. Bu dövrün mütərəqqi ziyalıları folkloru milli kimliyin sütunlarından biri kimi səciyyələndirərək, onun elmi əsaslarla mühafizəsini prioritet vəzifə kimi önə plana çəkmişlər. Həmin dövrün ədəbi və elmi nümunələrində Azərbaycan rəqs sənəti milli-mədəni sistemin strateji əhəmiyyətli tərkib hissəsi kimi xarakterizə olunur. Mənbələrdə

rəqs adlarının qeydə alınması, onların plastik quruluşuna dair şərhlər və coğrafi yayılma areallarının göstərilməsi, əslində, folklor materiallarının ilk sistemli sənədləşdirilməsi və elmi arxivləşdirilməsi cəhdləri kimi böyük elmi dəyər kəsb edir. Ötən əsrin əvvəllərində maarifçilik ideologiyası çərçivəsində qələmə alınan publisistik nümunələrdə Azərbaycan rəqs sənəti həm estetik, həm də pedaqoji müstəvidə yüksək qiymətləndirilmişdir. Bu dövrün ziyalıları rəqsi sadəcə folklor nümunəsi kimi deyil, cəmiyyətin estetik zövqünün cilalanmasında, eləcə də gənc nəslin fiziki və mənəvi inkişafında mühüm təsir vasitəsi kimi xarakterizə etmişlər. Rəqsin pedaqoji və mədəni əhəmiyyətinə dair bu cür konseptual yanaşma, onun milli dəyərlər sistemindəki rolunu möhkəmləndirməklə yanaşı, gələcəkdə professional xoreoqrafiya məktəbinin və səhnə rəqsinin təşəkkül tapması üçün zəruri olan nəzəri-ideoloji bazanı formalaşdırmışdır. Bu nəzəri bazanın praktik müstəvidə reallaşması və xalq yaddaşındakı rəqs nümunələrinin peşəkar səhnəyə gətirilməsində konkret şəxsiyyətlərin fədakar fəaliyyəti müstəsna rol oynamışdır. Xüsusilə unudulmaqda olan qədim rəqs formalarının bərpası və onların gələcək nəsillərə ötürülməsi prosesində böyük sənətkarların rolu mütləq qeyd edilməlidir. Tədqiqatçı R. Bəhmənli də bu xidmətləri yüksək qiymətləndirərək yazır: "*Qədim xalq rəqslərimizin adları haqqında, onların yaranma tarixi haqqında məlumatların əldə olunmasında rəqs sənətinin inkişafında böyük zəhmətləri olan nəcib, mehriban insan, Azərbaycanın xalq artisti, baletmeyster – rəqqasə Əminə Dilbazinin zəhməti əvəzsizdir"* (Bəhmənli, 2002: 5).

Azərbaycan xalq rəqslərinin zənginliyi və müxtəlifliyi onların təsnifatını zəruri etmişdir. Folklor mühitində rəqslər ilkin olaraq funksional və semantik xüsusiyyətlərinə görə fərqləndirilmişdir. Elmi tədqiqatlarda isə bu fərqləndirmə daha sistemli və nəzəri əsaslandırılmış təsnifat modellərinə çevrilmişdir. Məzmun baxımından rəqslər əmək və məişət rəqsləri, mərasim və bayram rəqsləri, qəhrəmanlıq və igidlik mövzulu rəqslər, eləcə də məzəli və oyun xarakterli rəqslər kimi qruplaşdırılır. Əmək rəqsləri insanın istehsal fəaliyyəti ilə bağlı hərəkətləri bədii formaya salaraq məişət həyatını əks etdirir. Mərasim rəqsləri isə dini və sosial ayinlərlə əlaqəli olaraq kollektiv dəyərlərin qorunmasına xidmət edir.

İcra formasına görə rəqslər solo, duet və kütləvi rəqslər kimi təsnif edilir. Tədqiqatçı K.Həsənov Azərbaycan rəqs sənətinin struktur xüsusiyyətlərini şərh edərək göstərir ki, "*Azərbaycan xalqı yüzillər boyu özünün gözəl rəqslərini, ifa tərzini, hərəkət leksikasını yaratmışdır. Azərbaycan rəqsinin əsas forması solo rəqsi və duet rəqsləri – iki nəfərin ifa etdiyi rəqslərdir. Lakin, bununla belə bizdə ellikcə oynanılan rəqslər də çoxdur. Xüsusilə Naxçıvan MR-da, respublikanın cənub rayonlarında – Lənkəranda, Lerikdə, Masallıda, Astarada kütləvi rəqslər geniş yayılmışdır*" (Həsənov, 1988: 3).

Bu bölgüdən aydın olur ki, kütləvi rəqslər folklor ənənəsinin ən qədim qatlarını təmsil edərək kollektiv icra prinsipini ön plana çıxarır. Solo rəqslər isə fərdi yaradıcılıq və texniki bacarıqların nümayişi baxımından əhəmiyyətlidir. Semantik

təsnifat rəqslərin adlarında və hərəkət strukturunda əks olunan simvolik mənalara əsaslanır. Yer adları, bitki və heyvan adları, insan adları və məişət anlayışları ilə bağlı rəqslər folklor təfəkküründə simvolik düşüncə tərzinin mövcudluğunu sübut edir. Bu təsnifat xalqın dünyagörüşünü və mədəni dəyərlər sistemini anlamaq baxımından mühüm əhəmiyyət daşıyır. Etnoqrafik, maarifçi mənbələrdə kişi və qadın rəqslərinin təsviri xüsusi yerə malikdir. Mənbələrdə kişi rəqslərinin dinamik və çevik hərəkətlərlə, qadın rəqslərinin isə daha zərif, təmkinli və ölçülü hərəkətlərlə icra edildiyi qeyd olunur. Bu müşahidələr Azərbaycan xalq rəqslərinin cinsiyyətə görə bölgüsünün tarixi əsaslara malik olduğunun sübutudur. Sonrakı elmi tədqiqatlar bu bölgünü sistemləşdirib nəzəri çərçivəyə salıbdır (Bax: Şəkil 3. 4.).



Şəkil 3.4. *Kişi və qadın rəqslərinin təsviri*

XIX-XX əsr etnoqrafik və maarifçi mənbələr Azərbaycan rəqs sənətinin yazılı şəkildə qeydə alınmasında mühüm mərhələ təşkil edir. Bu mənbələr folklor mühitində formalaşmış rəqslərin sosial, estetik və funksional xüsusiyyətlərini əks etdirərək sonrakı elmi sistemləşmə prosesinə zəmin yaratmışdır. Rəqs sənətinin milli mədəniyyətin ayrılmaz hissəsi kimi dərk edilməsi məhz bu dövrdə formalaşmış və peşəkar elmi tədqiqatların əsas istiqamətlərindən birinə çevrilmişdir. Maarifçi, etnoqrafik mənbələrin mühüm xüsusiyyətlərindən biri də onların təsviri xarakter daşımasıdır. Bu mənbələrdə rəqslər elə qeydlər şəklində təqdim olunur ki, onlar daha çox müşahidəyə əsaslansın. Belə yanaşma elmi təhlil üçün tam kifayət etməsə də, folklor mühitinin real mənzərəsini əks etdirməsi baxımdan dəyərli hesab olunur. Mütəxəssislər bu təsvirləri sonrakı nəzəri araşdırmalar üçün ilkin material kimi istifadə ediblər. Azərbaycan rəqs sənətinin yazılı elmi əsaslarının formalaşmasında Qəmər Almaszadənin fəaliyyəti xüsusi mərhələ təşkil edir. Onun yaradıcılığı folklor mühitində formalaşmış rəqs nümunələrinin yazılı şəkildə təsviri, sistemləşdirilməsi və peşəkar səhnə sənətinə inteqrasiyası baxımından mühüm əhəmiyyət kəsb edir. Qəmər xanım Azərbaycan rəqsinin təkcə ifaçısı və xoreoqrafı deyil, eyni zamanda onun elmi-nəzəri əsaslarını formalaşdıran ilk tədqiqatçılardan biri kimi çıxış etmişdir. Bu baxımdan onun əsərləri Azərbaycan xalq rəqslərinin yazılı tarixinin başlanğıc nöqtələrindən biri hesab olunur.

Q.Almaszadənin "Azərbaycan xalq rəqsləri" adlı əsəri Azərbaycan rəqs sənətinin sistemli şəkildə yazıya alınmış ilk fundamental mənbələrindən biri kimi qiymətləndirilir. Bu əsərdə müəllif folklor mühitində yaşayan rəqsləri toplayaraq onların icra xüsusiyyətlərini, hərəkət strukturunu və musiqi müşayiətini təsvir etmişdir. O, rəqsləri yalnız səhnə baxımından deyil, eyni zamanda folklor mənşəyi və sosial funksiyası prizmasından da araşdırmışdır. Bu yanaşma Azərbaycan rəqs sənətinin yazılı şəkildə öyrənilməsində yeni metodoloji xəttin əsasını qoymuşdur. Peşəkar sənət və folklor arasında körpü yaratmaq cəhdi Q.Almaszadənin elmi yanaşmasının əsas xüsusiyyətlərindən biridir. O, xalq arasında icra olunan rəqsləri olduğu kimi saxlamış, səhnə şəraitinə uyğunlaşdırarkən onların əsas semantik, struktur xüsusiyyətlərini qorumağa çalışmışdır. Bu yanaşma rəqs sənətinin yazılı təsvirində folklorun canlı mahiyyətinin itirilməməsi baxımdan mühüm əhəmiyyət kəsb edir. Görkəmli xoreoqraf xalq rəqslərinin daxili dinamikasını və estetik görünüşünü xarakterizə edərək qeyd edir ki, "*Azərbaycan rəqsləri quş pərvazını xatırladır. İfaçılar rəqsin başlanğıcında bir neçə coşqun hərəkət edirlər, sonra isə, sanki açılmış qanadlarla incə və zərif hərəkətlər ifa edirlər*" (Almaszadə, 1959: 7). Bu cür təsvirlər sübut edir ki, Q.Almaszadə üçün rəqs sadəcə hərəkətlər silsiləsi deyil, həm də müəyyən bir emosional və obrazlı məna daşıyan sənət hadisəsidir. O, əsərlərində rəqslərin təsnifatı məsələsinə də diqqət yetirilmişdir. Q.Almaszadə rəqsləri məzmununa, icra xarakterinə və sosial funksiyasına görə qruplaşdırıb, onların ümumi xüsusiyyətlərini müəyyənləşdirmişdir. Bəhs olunan təsnifat sonrakı tədqiqatlar üçün ilkin model rolunu oynamışdır. Xüsusilə kişi və

qadın rəqslərinin fərqləndirilməsi, kollektiv və solo rəqslərin ayrılması onun metodoloji yanaşmasının əsas cəhətlərindən biridir. Azərbaycan mədəniyyətinin sovet dövrü inkişaf mərhələsində Q.Almaszadənin yaradıcılıq fəaliyyəti daha geniş spektr kəsb etmişdir. Həmin illərdə xalq irsinə dövlət səviyyəsində göstərilən diqqət, rəqs sənətinin elmi əsaslarla tədqiqinə və onun kütləvi təbliğinə münbit zəmin hazırlamışdır. Bu dövrdə Almaszadənin topladığı və yazılı şəkildə təsvir etdiyi rəqslər peşəkar kollektivlərin repertuarına daxil edilmişdir. Beləliklə, folklor mühitində yaşayan rəqslər yazılı sənəd əsasında səhnə sənətinə inteqrasiya olunmuşdur. O, əsərlərində regional rəqs xüsusiyyətlərinə də diqqətlə nəzər yetirmişdir. Müəllif müxtəlif bölgələrdə icra olunan rəqslərin müxtəlif cəhətlərini qeyd edərək bu fərqlərin folklor mühitindən qaynaqlandığını bildirmişdir. Bu müşahidələr sonrakı tədqiqatlarda regional differensiasiyanın nəzəri əsaslandırılmasına imkan vermişdir. Onun regionlara aid qeydləri Azərbaycan xalq rəqslərinin coğrafi yayılma arealının müəyyənləşdirilməsi üçün mühüm mənbə kimi qiymətləndirilə bilər. Q.Almaszadənin klassik yazılı irsinin əhəmiyyəti yalnız onun öz dövrü ilə məhdudlaşmır. Onun əsərləri sonrakı tədqiqatçılar üçün metodoloji nümunə rolunu oynamışdır. K.Həsənov, R.Bəhmənli və başqa alimlər onun yazılı təsvirlərini əsas götürərək daha geniş elmi təsnifatlar aparmışlar. Bu baxımdan onun fəaliyyəti Azərbaycan rəqs sənətinin yazılı elmi ənənəsinin formalaşmasında başlanğıc mərhələ kimi qiymətləndirilir. Azərbaycan rəqs sənətinin tarixində Q.Almaszadənin klassik yazılı irsi keçid mərhələsi kimi xarakterizə olunur. Bu mərhələdə rəqs folklor mühitindən çıxıb elmi təsvir, yazılı sənəd obyektinə çevrilmişdir. Xalq rəqslərinin qorunması və sistemli şəkildə öyrənilməsi üçün bu proses mühüm əsas yaratmışdır. Xoreoqrafın əsərləri sayəsində bir çox rəqs nümunələri unudulmamış, gələcək nəsillərə ötürülmüşdür. Q.Almaszadənin fəaliyyəti Azərbaycan xalq rəqslərinin yazılı tarixində fundamental rol oynayır. Onun əsərləri folklor və elmi yanaşma arasında körpü rolunu oynayaraq rəqs sənətinin elmi-nəzəri əsaslarının formalaşmasına təkan vermişdir. Klassik yazılı rəqs irsi kimi qiymətləndirilən həmin əsərlər Azərbaycan mədəniyyətinin öyrənilməsində bu gün də aktual və dəyərli mənbə olaraq qalır.

Azərbaycan rəqs sənətinin yazılı elmi əsaslar üzərində sistemləşdirilməsi prosesində sovet dövrü xüsusi mərhələ təşkil edir. XX əsrin ortalarından etibarən mədəniyyətin dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilməsi xalq yaradıcılığının, o cümlədən rəqs sənətinin planlı şəkildə öyrənilməsinə, toplanmasına və yazılı şəkildə sənədləşdirilməsinə geniş imkanlar yaratmışdır. Bu dövrdə Azərbaycan rəqs sənəti folklor mühitindən çıxaraq elmi-nəzəri təhlilin obyektinə çevrilmiş, sistemli təsnifat və metodoloji yanaşmalar formalaşmışdır. Azərbaycanın qədim rəqs irsi peşəkar kollektivlərin təşəkkül tapdığı dövrdən etibarən xoreoqrafların yaradıcılıq süzgəcindən keçərək yeni bədii forma kəsb etmişdir. Xalq rəqslərinə müəllif tərəfindən verilən süjetli və məzmunlu quruluşlar, onlara sadəcə folklor nümunəsi kimi deyil, həmişəyaşar səhnə əsəri kimi yeni nəfəs qa-

zandırmışdır. Məhz bu xoreoqrafik interpretasiyalar sayəsində milli rəqs sənətimiz beynəlxalq arenalarda yüksək bədii dəyər kimi qəbul olunmuş, ifaçılarımızın sənətkarlığı isə dünya miqyasında tanınan uğurlara çevrilmişdir. Bu dövrün elmi nəşrlərində xüsusilə diqqəti çəkən məqam rəqslərin sistemli şəkildə təsnif edilməsidir. Araşdırmaçılar xalq arasında mövcud olan zəngin rəqs xəzinəsini toplayaraq onları müəyyən meyarlar əsasında qruplaşdırmağa çalışmışlar. Onlar arasında icra üsulu, mövzu, funksional rol və regional yayılma xüsusiyyətləri xüsusi əhəmiyyət daşıyır. Belə təsnifat folklor nümunələrinin elmi yanaşma ilə öyrənilməsi və tədris prosesinə inteqrasiyası baxımından vacib hesab olunmuşdur. Sovet dövrü tədqiqatlarında rəqslərin notlaşdırılması məsələsi də xüsusi əhəmiyyət kəsb edir. Şifahi yaddaşda yaşayan rəqs havalarının nota salınması bu zəngin musiqi materialının yazılı sənədləşməsini təmin edərək onun elmi təhlili üçün zəmin hazırlamışdır. Bu cür sistemli yanaşma, rəqslərin melodik quruluşu və ritmik arxitektonikası haqqında elmi qənaətlərin formalaşmasına, habelə rəqs sənətinin nəzəri strukturunun müəyyən edilməsinə xidmət etmişdir. Azərbaycan rəqs sənətinin səhnələşdirilməsi məsələsinə də Sovet dövrü elmi mənbələrində geniş yer verilmişdir. Folklor mühitində icra olunan rəqslərin peşəkar səhnə sənətinə uyğunlaşdırılması zamanı folklorun əsas xüsusiyyətlərinin qorunması vacib prinsip kimi irəli sürülmüşdür. Folklor rəqslərini həm səhnə estetikasına uyğunlaşdırmaq, həm də onların milli mahiyyətini itirməmək tədqiqatçıların və xoreoqrafların qarşısında duran əsas vəzifələrdəndir. Elmi mənbələrdə sovet dövründə formalaşmış peşəkar rəqs kollektivlərinin fəaliyyəti də araşdırma predmetinə çevrilmişdir. Dövlət Mahnı və Rəqs Ansamblının repertuarına daxil edilən xalq rəqsləri aparılmış elmi tədqiqatların nəticələri əsasında tərtib olunmuşdur. Sözügedən repertuar folklor nümunələrinin mühafizəsi ilə yanaşı, onların geniş tamaşaçı auditoriyasına çatdırılmasına imkan yaratmışdır. Elmi nəşrlərdə bu kollektivlərin fəaliyyəti milli rəqs irsinin tanıdılması və yayılması baxımından müsbət dəyərləndirilmişdir.

Sovet dövrü tədqiqatlarında terminoloji sistemləşmə məsələsi də mühüm yer tutur. Hərəkət terminlərinin, rəqs adlarının və icra xüsusiyyətlərinin vahid terminoloji çərçivədə təqdim olunması elmi mübadilə üçün vacib hesab edilmişdir. Bu dövrdə hazırlanmış izahlı məqalələr və terminoloji lüğətlər sonrakı tədqiqatlar üçün əsas baza rolunu oynamışdır. Həmin dövrün elmi nəşrlərində Azərbaycan rəqs sənətinin sistemləşdirilməsi prosesi kompleks və çoxşaxəli xarakter daşıyır. Bu dövrdə aparılan tədqiqatlar folklor mühitində yaşayan rəqslərin yazılı şəkildə qorunmasına, elmi təsnifatının aparılmasına və səhnə sənətinə inteqrasiyasına imkan vermişdir. İdeoloji çərçivələrə baxmayaraq, sovet dövrü elmi irsi Azərbaycan rəqs sənətinin yazılı tarixində mühüm mərhələ kimi qiymətləndirilir və müasir tədqiqatlar üçün etibarlı mənbə rolunu oynayır.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra milli mədəni irsin, o cümlədən xalq rəqs sənətinin öyrənilməsi yeni mərhələyə qədəm

qoymuşdur. Bu dövrdə ideoloji məhdudiyyətlərin aradan qalxması Azərbaycan rəqs sənətinin tarixi, folklor kökləri və estetik xüsusiyyətlərinin daha obyektiv və çoxşaxəli şəkildə tədqiqinə imkan yaratmışdır. Müstəqillik dövrü elmi tədqiqatlarında Azərbaycan rəqsi milli kimliyin mühüm ifadə vasitəsi kimi təqdim olunur və onun elmi-nəzəri təhlili prioritet istiqamətlərdən birinə çevrilir. Müstəqillik dövrü tədqiqatlarının əsas xüsusiyyətlərindən biri metodoloji yanaşmaların genişlənməsidir. Bu mərhələdə rəqs sənətinin öyrənilməsində folklorşünaslıq, musiqişünaslıq, etnoqrafiya və mədəniyyətşünaslıq yanaşmaları birgə tətbiq edilir. Belə multidissiplinar yanaşma Azərbaycan xalq rəqslərinin yalnız xoreoqrafik deyil, eyni zamanda sosial, tarixi və semantik aspektlərdən də təhlil olunmasına şərait yaradır. Bu yanaşma sovet dövrü tədqiqatlarından fərqli olaraq rəqs sənətini ideoloji çərçivələrdən kənar, milli-mədəni fenomen kimi təqdim edir.

Müstəqillik dövrü tədqiqatlarında diqqət çəkən mühüm istiqamətlərdən biri rəqslərin terminoloji və semantik təhlilidir. Bununla bağlı olaraq E. Hacıyeva belə yazır: “*Bu sahədə aparılan araşdırmalar göstərir ki, rəqs adları xalqın tarixi yaddaşını, coğrafi mühitini və dünyagörüşünü əks etdirən mühüm göstəricilərdir. Rəqs adlarının semantik analizi onların mənşəyini və funksional xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir. Bu yanaşma Azərbaycan rəqs sənətinin dərin folklor köklərə malik olduğunu bir daha sübut edir*” (Hacıyeva, 2025: 134). Müstəqillik dövründə yazılmış dissertasiya və avtoreferatlarda Azərbaycan rəqs sənətinin tədris, səhnə praktikası ilə əlaqəsi də geniş şəkildə araşdırılır. Bu araşdırmalarda xalq rəqslərinin peşəkar təhsil sistemində öyrədilməsi, repertuar siyasəti və səhnə quruluşlarının hazırlanması elmi-nəzəri aspektdən təhlil edilir. Rəqs sənətinin tədrisi zamanı folklor xüsusiyyətlərinin qorunması və səhnə estetikasına uyğunlaşdırılması əsas prinsip kimi vurğulanır. Müstəqillik illərində dərc olunan elmi mənbələrdə regional rəqs ənənələrinin qorunması, sistemləşdirilməsi və tədqiq olunması da xüsusi əhəmiyyət kəsb edir. Bu dövr tədqiqatçılarının apardığı araşdırmalarda Naxçıvan, Qarabağ, Şirvan, Abşeron və digər bölgələrə məxsus rəqs nümunələri ayrıca təhlil olunaraq onların üslub, ritm, plastika və ifa xüsusiyyətləri müqayisəli şəkildə təhlil edilmişdir. Regional materialların öyrənilməsi Azərbaycan xalq rəqslərinin həm ümummilli, həm də lokal xüsusiyyətlərini üzə çıxarmağa imkan yaradır. Belə yanaşma milli mədəni irsin bütövlüyünü qorumaqla bərabər, regional fərqliliyi də ön plana çıxarır.

Müstəqillik mərhələsində aparılan elmi araşdırmaların səciyyəvi cəhətlərindən biri də odur ki, mənbəşünaslıq bazası əhəmiyyətli dərəcədə genişlənmişdir. Öncəki dövrlərlə müqayisə etsək, yazılı və elektron resurslardan sistemli şəkildə istifadə elmi tədqiqatların metodoloji əsaslarını daha da möhkəmləndirmişdir. Azərbaycan Milli Kitabxanasının rəqəmsal fondları, dövlət arxivlərində qorunan sənədlər, dövrü mətbuat materialları, elmi jurnallar və konfrans topluları bu istiqamətdə əsas informasiya mənbələri kimi çıxış edir. Bəhs olunan materiallar sadəcə mövcud rəqs nümunələrinin təsviri ilə kifayətlənmir, eyni zamanda onla-

rın yanaşma şəraiti, inkişaf dinamikası və sosial-mədəni funksiyalarını izləməyə imkan verir.

Yazılı mənbələrin dövriyyəyə cəlb olunması folklor mühitində yaşayan rəqs ənənələrinin tarixi ardıcılıqla izlənilməsini və sənədləşdirilməsini təmin edir. Bu isə şifahi ənənə üzərində formalaşmış rəqs mədəniyyətini elmi şəkildə sistemləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Mənbələrin müqayisəli təhlili nəticəsində müxtəlif bölgələrdə mövcud olmuş ifa üslubları, terminoloji xüsusiyyətlər və janr bölgüsü daha aydın şəkildə müəyyənləşdirilir. Nəticə etibarı ilə, tədqiqatların obyektivlik səviyyəsi yüksəlir, faktiki baza zənginləşir, elmi nəticələrin etibarlığı artır. Müstəqillik dövrü araşdırmalarında diqqət çəkən digər vacib istiqamət rəqs sənətinin milli ideologiya və mədəni siyasət kontekstində qiymətləndirilməsidir. Azərbaycan xalq rəqsləri yalnız estetik hadisə kimi deyil, eyni zamanda milli kimliyin ifadəsi və mədəni suverenliyin simvolu kimi də təhlil olunur. Dövlət müstəqilliyinin bərpasından sonra milli-mədəni dəyərlərin qorunması və təbliği istiqamətində həyata keçirilən siyasət rəqs sənətinin inkişafına təsirsiz ötüşməyib. Xalq rəqslərinin beynəlxalq festivallarda, diaspor tədbirlərində və müxtəlif mədəni platformalarda nümayişi onların ölkənin mədəni imicinin formalaşmasında mühüm rol oynadığını göstərir. Müasir elmi ədəbiyyatda bu proses "mədəni diplomatiya" anlayışı çərçivəsində izah olunur və rəqs sənəti milli brendin tərkib hissəsi kimi dəyərləndirilir. Müstəqillik dövrü elmi-nəzəri təhlillərdə rəqs sənətinin qorunması və gələcək nəsillərə ötürülməsi məsələsi də ön plana çıxır. Qeyri-maddi mədəni irs anlayışı çərçivəsində Azərbaycan xalq rəqslərinin sənədləşdirilməsi, tədrisi və təbliği mühüm vəzifə kimi müəyyənləşdirilir. Bu yanaşma rəqs sənətinin yalnız keçmişin mirası deyil, eyni zamanda yaşayan və inkişaf edən mədəni fenomen olduğunu göstərir.

Beləliklə, müstəqillik dövrü tədqiqatları Azərbaycan rəqs sənətinin yazılı tarixi və elmi-nəzəri təhlilində keyfiyyətcə yeni mərhələ təşkil edir. Yazılı tarixi mənbələrin sistemli təhlili Azərbaycan rəqs sənətinin elmi baxımdan dərk olunmasına və qorunmasına əsaslı zəmin yaradır. Müstəqillik dövrü tədqiqatları Azərbaycan rəqs sənətini kompleks sosial-mədəni fenomen kimi dəyərləndirərək onu milli identikliyin formalaşması, mədəni siyasətin həyata keçirilməsi və beynəlxalq mədəni inteqrasiyanın təmin olunması baxımından yeni elmi çərçivədə təqdim edir. Bu mərhələ həm metodoloji yenilənmə, həm də konseptual yanaşmalar baxımından əvvəlki dövrlərdən keyfiyyətcə fərqlənir və gələcək tədqiqatlar üçün möhkəm elmi platforma yaradır.

Nəticə:

Azərbaycan xalq rəqslərinin yazılı mənbələrdə əks olunması onların elmi əsaslarla öyrənilməsi, qorunması üçün əsaslı zəmin yaratmışdır. Erkən mənbələrdən başlayaraq XIX-XX əsr etnoqrafik və maarifçi qeydlərinə, eyni zamanda sovet və müstəqillik dövrü tədqiqatlarına qədər, rəqslər və sosial-mədəni kontekstdə, icra xüsusiyyətləri, musiqi və cinsiyyət fərqləri ilə birlikdə sistemli şəkildə sənədləşdi-

rilmişdir. Q.Almaszadənin klassik yazılı irsi və digər araşdırmalar rəqslərin strukturunu, funksiyasını və regional fərqlərini müəyyən etməyə imkan vermiş, folklor və peşəkar səhnə arasında körpü yaratmışdır. Nəticə etibarı ilə Azərbaycan rəqs sənəti yalnız folklor hadisəsi kimi deyil, həm də elmi-nəzəri təhlil obyekti, milli mədəniyyətin ayrılmaz və funksional komponenti kimi dəyərləndirilmişdir. Bu yanaşma rəqslərin həm qorunması, həm də gələcək nəsillərə sistemli şəkildə ötürülməsi baxımından davamlı elmi platforma formalaşdırmışdır.

ƏDƏBİYYAT:

1. Almaszadə, Q. M. Azərbaycan xalq rəqsləri. Bakı: Birləşmiş nəşriyyat, 1959, 150 s.
2. Bəhmənli, R. Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları. Bakı: “İmza” nəşrlər evi, 2022, 112 səh.
3. Bəhmənli, R.B. Azərbaycan xalq rəqsləri. Bakı: Adiloğlu nəşriyyatı, 2002, 158 s.
4. Bəhmənli, R.B. Azərbaycan yallıları. Dərs vəsaiti. Bakı: Mütərcim, 2018, 140 s.
5. Nəbiyeva, F.R. Dairəvi ayin rəqsləri musiqi folklorunda xalqlararası identifikasiya faktoru kimi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2018, 34 s.
6. Hacıyeva, E.A. Ənənəvi Azərbaycan rəqs adlarının klassifikasiyası. // Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, mart-aprel 2025, № 02 (86), s. 134-140. URL:https://geostrategiya.az/documents/2025/05/Meqal-1746637465.pdf
7. Həsənov, K.N. Qədim Azərbaycan xalq rəqsləri. Bakı: Elm, 1983, 60 s.
8. Həsənov, K.N. Qədim folklor rəqsləri. Bakı: İşıq, 1988, 129 s.

KƏLBƏCƏR AŞIQ FESTİVALI ÇƏRÇİVƏSİNDƏ I AŞIQ MÜSABİQƏSİ

2026-cı il 14-15 may tarixlərində Azərbaycan Milli Konservatoriyasının Fikrət Əmirov zalında I Kəlbəcər Aşıq Festivalı çərçivəsində I Aşıq müsabiqəsi keçirildi. İki turdan ibarət bu müsabiqəyə 25 nəfər iştirakçı ərizə ilə müraciət etmişdi. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Konservatoriyasının birgə layihəsi olan həmin müsabiqənin I turunun açılış mərasimində çıxış edən AMK-nın rektoru, sənətşünaslıq doktoru, Əməkdar incəsənət xadimi, professor Kamilə xanım Dadaş-zadə I Aşıq müsabiqəsinin əhəmiyyətindən danışaraq onun aktuallığını dilə gətirdi. Kamilə xanım iştirakçılara uğurlar dilədikdən sonra sözü Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı və ustad aşıq, Əməkdar Mədəniyyət işçisi Ədalət Qaraşova verdi. Onlar da öz növbəsində adı çəkilən müsabiqənin yeniliyini və zəruriliyini qeyd etdilər.

Püşkatmadan sonra birinci turun iştirakçılarının çıxışları baş tutdu və münsiflər heyəti tərəfindən qiymətləndirildi. Münsiflər heyətinin üzvləri K.Dadaşzadə, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Aşıqlar Birliyinin sədr müavini Altay Məmmədov, ustad aşıq Cahangir Quliyev, həmçinin filologiya üzrə fəlsəfə doktoru, AMK-nın dosenti Fəxrəddin Baxşəliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, AMK-nın dosenti Mübariz Əliyev, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Nemət Qasımlı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Hafiz Kərimov gənc ifaçılara çalıb-oxuduqları nümunələrlə bağlı suallar da verdilər.

Yüksək nəticə göstərmiş və II tura keçid üçün nailiyyət əldə etmiş gənc aşıqların adı, soyadı və ümumi balları barədə K.Dadaş-zadə məlumat verdi. O, uğur qazanmış bütün iştirakçıları – İ. Hüseynov, T.Alxanov, N.Cəlalzadə, V.Bəylərova, R.Rüstəmov, o cümlədən R.Mürsəlova, A.Abbasova, S.Nağıyev, Z.Məhəmmədova, S.Pənahov, Ə.Məhərrəmzadə, həmçinin M.Cəfərova və K.Əkbərovu təbrik edərək, müsabiqənin növbəti mərhələsinin 15 may 2026-cı il tarixində keçiriləcəyini zala toplaşanların diqqətinə çatdırdı. Qeyd edək ki, iştirakçıların seçimi münsiflər heyəti tərəfindən qəbul edilmiş beş meyar – oxuma qabiliyyəti, saz ifaçılığı, repertuar seçimi, mətn seçimi və tələffüzü, səhnə mədəniyyəti və artistizm əsasında aparıldı. Aşıqlar vokal-instrumental növə aid olan iki havanı ifa etdilər. İlk tur 13 nəfər ifaçının növbəti mərhələyə keçid alması ilə uğurla yekunlaşdı.

II mərhələdə isə istedadlı yeniyetmə və gənclərdən ibarət 11 nəfər iştirakçı çıxış etdi. Müsabiqənin şərtlərinə uyğun olaraq ifaçılar Azərbaycan dastanlarından hər hansı birinin müəyyən hissəsini söyləməli və sazda klassik havaları ifa etməli idilər. Qeyd edək ki, onların seçimi münsiflər heyəti tərəfindən qəbul edil-

miş dastançılıq məharəti, oxuma qabiliyyəti, saz ifaçılığı, səhnə mədəniyyəti və artistizm meyarları əsasında aparıldı.

Yüksək nəticə göstərmiş gənc aşıqların kimliyi və ümumi balları barədə AMK-nın rektoru K. Dadaş-zadə məlumat verdi. O, uğur qazanmış qaliblərin adlarını çəkərək onları təbrik etdi. Kamilə xanım müsabiqənin səmərəli keçdiyini, ifaçılıqla bağlı müəyyən problemlərin olduğunu vurğuladı. Müsabiqəni böyük bir məktəb kimi səciyyələndirdi. Sonra isə münsiflər heyətinin hər bir üzvü gənc aşıqları təbrik edərək qaliblərə tövsiyələrini dilə gətirdilər. Azərbaycan Respublikası Mədəniyyət Nazirinin müşaviri Cahangir Səlimxanov Kamilə xanıma təşəkkürünü bildirdi. O, gənclərə klassik aşıq havalarını öyrənməyi tövsiyə etdi və onlara uğurlar dilədi. Ə.Qaraşov da repertuarın genişləndirilməsi məsələsinə toxundu və AMK-nın rəhbərliyinə minnətdarlığını çatdırdı. F.Baxşəliyev iştirakçılar arasında seçim etməyin çətin olduğunu dedi. Ozan-aşıq sənətinin sinkretik sənət olduğunu vurğuladı. Bu bulağın gözünün qurumadığını deyərək bundan şad olduğunu ifadə etdi. O, müsabiqədə iştirak edən gəncləri xalqımızın qürur mənbəyi kimi səciyyələndirdi və aşıq sənəti ənənələrinin davamlı olmağından fəxr elədiyini vurğuladı. M.Əliyev 25 il ərzində AMK-da belə bir müsabiqənin ilk dəfə keçirildiyini nəzərə çatdırdı. Layihənin təşkili üçün Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə təşəkkürünü ünvanladı. Gənclərə diksiyalarına fikir verməyi, fərqli aşıq havalarını öz repertuarlarına daxil etməyi tövsiyə kimi bildirdi. O, bu layihədə əməyi olanlara minnətdarlığını çatdırdı. Daha sonra Kəlbəcər rayon təşkilatının sədri adından Həbib Misirov danışaraq 30 il sonra Kəlbəcərdə aşıq festivalının keçirilməsini tarixi hadisə kimi səciyyələndirdi. Qalib olan aşıqların ilk tumurcuqlar olduğunu söylədi. A.Məmmədov isə müsabiqəyə qoşulanları cəsarətli musiqiçilər kimi xarakterizə etdi. O, çıxışı zamanı gənc ifaçıları Azərbaycan Aşıqlar Birliyinə üzv kimi dəvət etməyin mümkünlüyünü dilə gətirdi.



I Kəlbəcər Aşıq Festivalı çərçivəsində I Aşıq müsabiqəsinin qaliblərinin təqdimatı

Beləliklə, ikinci tur 4 nəfər ifaçının qalib elan edilməsi ilə sona çatdı. Münsiflər heyətinin yekdil qərarı ilə birinci yer verilmədi. Müsabiqə gözləntiləri daha çox doğruldan Tacir Alxanov və İbrahim Hüseynov ikinci yerin qalibi, Vüsalə Bəylərova və Rəvan Rüstəmov isə üçüncü yerə layiq görüldülər. Daha sonra qaliblərin ifasında aşıq havaları ifa olundu. Gənclərin məharətli ifasını Özbəkistan Respublikasından təşrif buyurmuş bir qrup incəsənət xadimi də dinlədi. Sonda qonaqlarla birlikdə xatirə fotoları çəkdirildi. Müsabiqə öz işini uğurla başa vurdu.

Biz də AMK-nın kollektivi adından I Kəlbəcər Aşıq Festivalı çərçivəsində I Aşıq müsabiqəsinin gənc qaliblərini ürəkdən təbrik edir və onlara aşıq sənətinin qorunub yaşadılması və bundan sonra da yeni nəsillərə ötürülməsi yolunda tükənməz yaradıcılıq enerjisi arzulayırıq.

Fazilə NƏBİYEVA
AMK-nın "Elm, Yaradıcılıq və Beynəlxalq Əlaqələr Mərkəzi"nin baş elmi işçisi
Sənətşünaslıq üzrə fəlsəfə doktoru

İSTANBULDA KEÇİRİLMİŞ “*PEVoC 16 AND VOICE ISTANBUL – 2026*” BEYNƏLXALQ KONQRESİ HAQQINDA TƏƏSSÜRAT

25-28 mart 2026-cı il tarixlərində İstanbulda “*PEVoC 16 and Voice Istanbul – 2026*” adlı beynəlxalq konqres keçirilmişdir. Həmin konqresə Azərbaycan Milli Konservatoriyası nəzdində “Səsin Tədqiqi” elmi-praktiki laboratoriyasının rəhbəri Aleksandriya Sultan fon Brüseldorff (Sultan-zadə) məruzəsi ilə şəxsən qatılmışdır. Qeyd edək ki, Aleksandriya Sultan fon Brüseldorffun elmi və pedaqoji fəaliyyətinin ən mühüm istiqamətlərindən biri məhz Azərbaycanda vokal sənətinin nailiyyətlərini, akustikanı, fiziologiyanı, qırtlaq biomexanikasını, vokal pedaqogikanı və əlaqəli elmi sahələri özündə birləşdirən müasir multidissiplinar insan səsi tədqiqat məktəbinin inkişaf etdirilməsidir. Bu kimi elmi istiqamət səsin akustikası, fiziologiyası, anatomiyası və gigiyenasının, eləcə də muğam ifaçıları və vokal pedaqoqlar üçün pedaqoji vokologiyanın əsaslarının tədrisini əhatə edir. Bu model Azərbaycan ali musiqi təhsil sistemində ilk kompleks multidissiplinar yanaşmalardan biri olmaqla, beynəlxalq elmi nailiyyətlərin milli vokal təhsil sisteminə inteqrasiyasına xidmət edir.

Məhz bu kontekstdə 25-28 mart 2026-cı il tarixlərində İstanbulda keçirilmiş “PEVoC 16 and Voice Istanbul-2026” beynəlxalq konqresi olduqca əhəmiyyətlidir. Həmin konqres iki böyük beynəlxalq platforma – Pan-European Voice Conference (PEVoC) və Voice Istanbul (Pan-Avropa Səs Konfransı (PEVoC) və Səs İstanbul) forumlarını birləşdirərək insan səsinin tədqiqi sahəsində dünyanın ən nüfuzlu elmi tədbirlərindən birinə çevrilmişdir. Konqresin proqramına plenar sessiyalar, tematik panellər, bölmə çıxışları, ustad dərsləri, poster təqdimatları və elmi müzakirələr daxil olmuşdur. Bu tədbirlər vokologiya, foniatriya, otorinolarinqologiya, akustika, nitq terapiyası, vokal pedaqogika və ifaçılıq sənəti sahəsində müasir elmi nailiyyətlərə həsr olunmuşdur.

Konqres İstanbul Texniki Universitetinin Memarlıq Fakültəsinin yerləşdiyi tarixi Taşkışla binasında keçirilmişdir. XIX əsrə aid olan bu bina Türkiyənin mühüm memarlıq abidələrindən biri olmaqla yanaşı, böyük beynəlxalq elmi tədbirlərin ənənəvi keçirilmə məkanlarından biridir. Konqresə xüsusi simvolik dəyər verən məqam isə İsveçli alim, müasir vokal akustika elminin banilərindən biri olan professor Yohan Sunberqin (Johan Sundberg) 90 illik yubileyinə həsr olunmuş sessiyalar olmuşdur. Onun fundamental tədqiqatları vokal ifaçılığın akustik mexanizmlərinin müasir elmi izahının formalaşmasında həlledici rol oynamışdır. Yohan Sunberq həmçinin Aleksandriya Sultan fon Brüseldorffun doktorluq tədqiqatı çərçivəsində vokal akustika üzrə rəsmi elmi məsləhətçi (*supervisor /consultant*) kimi çıxış etmişdir. Onun metodoloji yanaşmaları tədqiqatın elmi konsepsiyasının formalaşmasına mühüm töhfə vermişdir.

Konqresdə həmçinin ABŞ-dan olan dünya şöhrətli alim Professor Ingo R. Titze də onlayn formatda iştirak etmişdir. O, vokologiya elminin banilərindən biri, "*vocology*" termininin müəllifi və vokal elminin fiziologiya, akustika, biomexanika və pedaqogikanı birləşdirən müasir konsepsiyasının yaradıcılarından biridir. Konqresdə eləcə də, Avropa, Şimali Amerika, Asiya və digər regionlardan olan aparıcı elmi mərkəzlərin nümayəndələri – otorinolarinqoloqlar, foniatrlar, nitq terapevtləri, səs tədqiqatçıları, vokal pedaqoqları, professional ifaçılar, akustika mühəndisləri və səhnə sənəti mütəxəssisləri iştirak etmişlər.

Azərbaycandan isə Azərbaycan Milli Konservatoriyası nəzdində "Səsin Tədqiqi Elmi-Praktiki Laboratoriyası"nın təsisçisi və beynəlxalq elmi təmsilçisi Aleksandriya Sultan fon Brüseldorff 25 mart 2026-cı il tarixində "Physiological Features of the Voice of Turkish Folk Artists: Problems and Solutions" (Türk xalq artistlərinin səsinin fizioloji xüsusiyyətləri: problemlər və həll yolları) adlı xüsusi paneldə "*Acoustic Strategies in the Interpretations of Performers Representing Operatic, Chamber and Mugham Traditions in the Azerbaijani Ghazal-Romance 'Sevgili Canan'*" (""Sevgili Canan" qəzəl-romansında opera, kamera və muğam ənənələrini təmsil edən ifaçıların interpretasiyasında akustik strategiya") məruzəsi ilə çıxış etmişdir. Qeyd edək ki, həmin Panelin sədri Professor Özgür Yiğit, moderatoru isə professor Ramil Həşimli olmuşdur. Məruzə operativ, kamera və muğam ifaçılıq məktəblərinin akustik xüsusiyyətlərinin müqayisəli təhlilinə həsr olunmuş və Azərbaycan vokal sənətinin müasir vokologiya çərçivəsində elmi təhlilinə yönəlmişdir.


PEVoC 16
Pan European Voice Conference
VOICEISTANBUL
MARCH 25-28, 2026 | ISTANBUL

CERTIFICATE OF ATTENDANCE

ALEXANDRIA SULTAN VON BRUSELDORFF

Has attended the
"16th Pan-European Voice Conference (PEVOC 16) and Voice Istanbul"
which was held in İstanbul, Türkiye on 25 to 28 March 2026.

Prof. Dr. Kürşat Yelken
Pevoc16 Congress President

Prof. Dr. Hakan Birkent
Voice Istanbul Congress President

Azərbaycan Milli Konservatoriyası nəzdində "Səsin Tədqiqi Elmi-Praktiki Laboratoriyası"nın rəhbəri Aleksandriya Sultan fon Brüseldorffun Sertifikatı





Aleksandriya Sultan fon Brüseldorffun çıxışı



Aleksandriya Sultan fon Brüseldorff və proqram mühəndisliyi və səs elmi üzrə mütəxəssis Hama Biglari



İsveçli alim, müasir vokal akustika elminin banilərindən biri, professor Yohan Sunberq və Aleksandriya Sultan fon Brüseldorff





"PEVoC 16 and Voice Istanbul -2026" Konqresin iştirakçıları



Kaliforniyalı caz ifaçısı Lisa Popill və Aleksandriya Sultan fon Brüseldorff



“PEVoC 16 and Voice Istanbul -2026” Konqresinin açılışı: İsveçli alim, müasir vokal akustika elminin banilərindən biri, professor Yohan Sunberq, onun həyat yoldaşı və KBB mütəxəssisi və səs cərrahı İlter Denizoğlu



"PEVoC 16 and Voice Istanbul - 2026" Konqresin iştirakçıları

2026-cı il 28 mart tarixində isə Aleksandriya Sultan fon Brüseldorffun "*Oral Presentations*" sessiyasında ikinci elmi məruzəsi təqdim edilir. Bu tədqiqat Azərbaycan qəzəl-romansı "Sevgili Canan" əsasında müxtəlif vokal məktəblərinin təfsir strategiyasının müqayisəli akustik təhlilinə həsr olunmuşdur. Konqresin yekununa doğru Aleksandriya Sultan fon Brüseldorffa konqresdə iştirakının nəticəsi olaraq rəsmi beynəlxalq sertifikatlar və iştirakın təsdiq sənədləri təqdim olunmuşdur. Təqdim olunan elmi məruzələr "PEVoC 16 and Voice Istanbul-2026" Konqresinin rəsmi elektron materiallar toplusunda (URL:https://www.pevoc2026.com/) nəşr edilmişdir.

Bu iştirak Azərbaycan Milli Konservatoriyası nəzdində "Səsin Tədqiqi" elmi-praktiki laboratoriyasının beynəlxalq elmi fəaliyyətinin inkişafına, yeni əməkdaşlıqların qurulmasına və vokologiya, akustika, qırtlaq biomexanikası və vokal pedaqogika sahəsində yeni tədqiqat istiqamətlərinin formalaşmasına mühüm töhfə vermişdir. Əldə olunan nəticələr Azərbaycan vokal təhsil sistemində səsin akustikası, fiziologiyası, anatomiyası və gigiyenası üzrə yeni tədris fənlərinin hazırlanması, pedaqoji vokologiyanın inkişafı və milli vokal məktəbinin beynəlxalq elmi mühitə inteqrasiyası baxımından mühüm praktik əhəmiyyət daşıyır.

Aleksandriya SULTAN FON BRÜSELDORFF (SULTAN-ZADƏ)
"Səsin Tədqiqi" elmi-praktiki laboratoriyasının müdiri,
vokal pedaqoqu, səs tədqiqatçısı və akademik ifaçı (soprano)

AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI ƏMƏKDAŞLARININ ÖZBƏKİSTAN SƏFƏRİ

2026-cı il 18-22 may tarixlərində Özbəkistan Dövlət Konservatoriyasında keçirilən Türk dünyasında musiqi və rəqs üzrə ICTMD Tədqiqat Qrupunun “Türk musiqi və rəqs ənənələrinin qorunub saxlanılması, öyrənilməsi, tətbiqi və inkişafında ali təhsil müəssisələrinin rolu” adlı 10-cu simpoziumunda Azərbaycan Milli Konservatoriyasının rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Kamilə Dadaş-zadə, AMK-nın Elm, İnnovasiya və Yaradıcılıq məsələləri üzrə prorektoru, Əməkdar incəsənət xadimi, professor Lalə Hüseynova, Xalq artisti, AMK-nın İnstrumental muğam kafedrasının müdiri Malik Mansurov, Əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, AMK-nın Muğam (xanəndə) kafedrasının dosenti Gülüstan Əliyeva, AMK-nın ikinci kurs magistr tələbəsi, Elm, Yaradıcılıq və Beynəlxalq Əlaqələr Mərkəzinin yaradıcılıq işləri üzrə mütəxəssisi Zeynəb Bağır və AMK-nın doktorantı, Elm, Yaradıcılıq və Beynəlxalq Əlaqələr Mərkəzinin laborantı Kənan Sadıqov iştirak ediblər.



Özbəkistan Dövlət Konservatoriyasında keçirilən Türk dünyasında musiqi və rəqs üzrə ICTMD tədqiqat qrupunun “Türk musiqi və rəqs ənənələrinin qorunub saxlanılması, öyrənilməsi, tətbiqi və inkişafında ali təhsil müəssisələrinin rolu” X Simpoziumun iştirakçıları

Konfransın 19-20 may tarixlərini əhatə edən proqramında professor Lalə Hüseynova “Azərbaycan ali musiqi təhsili sistemində ustad-şagird ənənələri: tarix və müasirlik” mövzusunda məruzə edib, təqdimat zamanı Xalq artisti Malik Mansurovun ifasında əyani musiqi nümunələri göstərilib. Eyni zamanda konfrans günlərində Xalq artisti Malik Mansurov ustad dərsləri keçib. Əməkdar artist Gülüstan Əliyeva “Azərbaycan muğamının qorunması və ötürülməsində ustad-şagird ənənəsinin rolu”, Zeynəb Bağır “İraq türkman musiqi ənənəsinin

türk musiqisi kontekstində rolu", Kənan Sadıqov isə "Muğam sənətində Azərbaycan tar ifaçılıq texnikaları" mövzularında çıxış ediblər. Konfransda həmçinin K.Bayseitova adına Qazaxıstan Milli İncəsənət Universitetinin professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Kuzbakova AMK-nın Elm, Yaradıcılıq və Beynəlxalq Əlaqələr Mərkəzinin elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Humay Fərəcova ilə həmmüəllifi olduğu "Qazax xalq mahnısı "Əquqay" Azərbaycan və ümumtürk kontekstində" mövzusunda məruzəni səsləndirib.



*Xalq artisti, AMK-nın İnstrumental muğam kafedrasının müdiri **Malik Mansurov** və Azərbaycan Respublikasının əməkdar artisti, xanəndə **Qoçaq Əsgərov***



*Özbəkistan Dövlət Konservatoriyasının "Musiqi tarixi və tənqidi" kafedrasının professoru, sənətşünaslıq elmləri doktoru **Şoista Qanixanova,** AMK-nın Elm, İnnovasiya və Yaradıcılıq məsələləri üzrə prorektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor **Lalə Hüseynova,** AMK-nın Muğam (xanəndə) kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru **Gülüstan Əliyeva***



ICTMD tədqiqat qrupunun “Türk musiqi və rəqs ənənələrinin qorunub saxlanılması, öyrənilməsi, tətbiqi və inkişafında ali təhsil müəssisələrinin rolu” adlı 10-cu Simpoziumunun iştirakçıları



Elm, Yaradıcılıq və Beynəlxalq Əlaqələr Mərkəzinin laborantı Kənan Sadıqov



AMK-nın ikinci kurs magistr tələbəsi, Elm, Yaradıcılıq və Beynəlxalq Əlaqələr Mərkəzinin yaradıcılıq işləri üzrə mütəxəssisi Zeynəb Bağır



AMK-nın Elm, İnnovasiya və Yaradıcılıq məsələləri üzrə prorektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova



Özbəkistan Dövlət Konservatoriyasında keçirilən Türk dünyasında musiqi və rəqs üzrə ICTMD tədqiqat qrupunun “Türk musiqi və rəqs ənənələrinin qorunub saxlanılması, öyrənilməsi, tətbiqi və inkişafında ali təhsil müəssisələrinin rolu” mövzusunda 10-cu Simpoziumunun iştirakçıları

Özbəkistan Dövlət Konservatoriyasında keçirilən Türk dünyasında musiqi və rəqs üzrə ICTMD Tədqiqat Qrupunun “Türk musiqi və rəqs ənənələrinin qorunub saxlanılması, öyrənilməsi, tətbiqi və inkişafında ali təhsil müəssisələrinin rolu” adlı 10-cu simpoziumunda təqdim olunan çıxışlar zamanı Azərbaycan Milli Konservatoriyasının elmi, yaradıcılıq və ifaçılıq mühiti ilə bağlı məqamlar da xüsusi vurğulanıb. Plenar iclasda çıxış edən *Coastal Carolina* Universitetinin professoru *Anna Oldfield* “Türk və qlobal kontekstlərdə epik sənəti” mövzusunda məruzəsində türk xalqlarının epik musiqisindən bəhs edərkən Azərbaycan aşıq məktəbinə də toxunub. O, Azərbaycan Milli Konservatoriyasının rektoru, professor Kamilə Dadaş-zadə ilə birgə həyata keçirilən “Azərbaycan etnomusiqişünaslığın yeni mənbələrin açılması: "ELARC – Əminə Eldarovanın arxivi" layihəsini qeyd edərək, Ə.Eldarovanın aşıq sənətinə dair tədqiqatları və layihə çərçivəsində aparılan araşdırmalar əsasında məruzəsini təqdim edib.

York Universitetinin Asiya Araşdırmaları Mərkəzini təmsil edən Azərbaycan əsilli kanadalı xoreoqraf Saşar Zərif isə “Muğam rəqsi – bədən dilində modal improvizasiya” mövzusunda məruzəsində Azərbaycan Milli Konservatoriyasında Xalq artisti Alim Qasımovla birlikdə təqdim olunmuş “Səma” adlı möhtəşəm konsert proqramından bəhs edib və çıxışı zamanı həmin konsertdən görüntüləri dinləyicilərin nəzərinə çatdıraraq Azərbaycan Milli Konservatoriyasında həyata keçirdiyi digər seminar və layihələr haqqında dolğun məlumat verib



Coastal Carolina Universitetinin professoru Anna Oldfield



York Universitetinin Asiya Araşdırmaları Mərkəzinin xoreoqrafı Saşar Zərif

“MUSİQİ TƏHSİLİ: QLOBAL MİQYASDA VAHİD PLATFORMAYA DOĞRU” MÖVZUSUNDA BEYNƏLXALQ FORUM

18-20 may 2026-cı il tarixlərində Özbəkistan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Daşkənd şəhərində “Musiqi təhsili: qlobal miqyasda vahid platformaya doğru” mövzusunda beynəlxalq forum keçirilib.

Dünyanın müxtəlif ölkələrindən incəsənət və mədəniyyət xadimlərini, tanınmış alimləri, ali təhsil müəssisələrinin rektorlarını bir araya gətirən beynəlxalq forumda Azərbaycan Milli Konservatoriyasının rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Kamilə Dadaş-zadə iştirak edib. Forum çərçivəsində təşkil edilən “Mədəni təhsildə süni intellektin əhəmiyyəti” mövzusunda beynəlxalq elmi-praktik konfransda professor Kamilə Dadaş-zadə çıxış edərək süni intellektin musiqi təhsilinin inkişafında rolu, əhəmiyyəti və gələcək perspektivləri barədə dolğun məruzə edib. Forumda Azərbaycan Milli Konservatoriyası və Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutunun rektorları – professor Kamilə Dadaş-zadə və Nodirbek Sayfullayev əməkdaşlığa dair memorandum imzalayıblar.





*Azərbaycan Milli Konservatoriyasının və Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutunun rektorları: **Nodirbek Sayfullayev** və **Kamilə Dadaş-zadə***



Özbəkistan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Daşkənd şəhərində "Musiqi təhsili: qlobal miqyasda vahid platformaya doğru" mövzusunda beynəlxalq forumun iştirakçıları

Özbəkistana səfər çərçivəsində Azərbaycan Milli Konservatoriyasının rektoru, professor Kamilə Dadaş-zadə Özbəkistan Dövlət Konservatoriyasında olub və Konservatoriyanın rektoru, professor Kamoliddin Urinbayev ilə görüşüb. Səfər zamanı AMK rektoru Özbəkistan Dövlət Konservatoriyasının tədris və yaradıcılıq mühiti ilə tanış olub, ali musiqi təhsili sahəsində həyata keçirilən fəaliyyət, ixtisaslaşma istiqamətləri və yaradıcılıq prosesləri barədə məlumatlandırılıb. Görüş zamanı Azərbaycan Milli Konservatoriyası ilə Özbəkistan Dövlət Konservatoriyası arasında əməkdaşlığın inkişafı məqsədilə memorandum imzalanıb. Sənəd iki ali musiqi təhsili müəssisəsi arasında elmi, tədris və yaradıcılıq əlaqələrinin genişləndirilməsinə, birgə layihələrin həyata keçirilməsinə və qarşılıqlı təcrübə mübadiləsinə xidmət edəcək.



Azərbaycan Milli Konservatoriyasının rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor ***Kamilə Dadaş-zadə və*** *Özbəkistan Dövlət Konservatoriyanın rektoru, professor* ***Kamoliddin Urinbayev***

Səfər zamanı Azərbaycan Milli Konservatoriyasının rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Kamilə Dadaş-zadə və AMK-nın Elm, İnnovasiya və Yaradıcılıq məsələləri üzrə prorektoru, Əməkdar incəsənət xadimi, professor Lalə Hüseynova Yunus Rəcəbi adına Özbəkistan Milli Musiqi Sənəti İnstitutunda da olublar. Yunus Rəcəbi adına Özbəkistan Milli Musiqi Sənəti İnstitutunun rektoru Eldor Şermanov qonaqları institutun tədris və yaradıcılıq mühiti, elmi-pedaqoji fəaliyyəti, ayrı-ayrı struktur bölmələri və əməkdaşları ilə tanış edib. Daha sonra institutun rəhbər heyəti, fakültə dekanları, kafedra müdirləri və əməkdaşlarının iştirakı ilə dəyirmi masa formatında görüş keçirilib. Görüşdə çıxışlar dinlənilib, hər iki təhsil müəssisəsinin fəaliyyəti, milli musiqi təhsili sahəsində təcrübəsi və gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb. Sonda Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaş-zadə və Yunus Rəcəbi adına Özbəkistan Milli Musiqi Sənəti İnstitutunun rektoru Eldor Şermanov tərəfindən əməkdaşlıq memorandumu imzalanıb. Memorandum gələcəkdə iki müəssisənin tələbə və müəllimlərinin birgə çalışmasına, təcrübə mübadiləsinə və ortaq layihələrdə iştirakına şərait yaradacaq.



*Azərbaycan Milli Konservatoriyasının rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor **Kamilə Dadaş-zadə** və Özbək Milli Musiqi Sənəti İnstitutunun rektoru **Eldor Şermanov***





*Azərbaycan Milli Konservatoriyasının rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor **Kamilə Dadaş-zadə** və AMK-nın Elm, İnnovasiya və Yaradıcılıq məsələləri üzrə prorektoru, Əməkdar incəsənət xadimi, professor **Lalə Hüseynova** Yunus Rəcəbi adına Özbəkistan Milli Musiqi Sənəti İnstitutunda*

Məlumat və fotolar AMK-nın rəsmi saytından götürülüb

“Konservatoriya” elmi jurnalının tələbləri

“Konservatoriya” elmi jurnalında çap olunmaq uçun təqdim edilən məqalələr aşağıdakı şərtlərə cavab verməlidir.

Məqalənin quruluşu

1. Məqalənin başlığı **(BAŞ HƏRFLƏRLƏ, qara)**
2. Müəllifin soyadı, adı, atasının adı **(SOYAD, Ad Ata adı)**
3. Müəllifin fotosu (şəkil formatlarının birində – jpeg, jpg, png – məktuba əlavə edilir)
4. Statusu (elmi adı, elmi dərəcəsi, yaxud dissertant, ya da doktorant olduğu təşkilat) və vəzifəsi (işlədiyi yer, müəssisənin və ya təşkilatın ünvanı)
5. Elektron poçt ünvanı
6. ORCID kodu
7. Məqalənin yazıldığı dildə xülasə (4-5 cümlə) və açar sözlər (5-8 söz və ya söz birləşməsi)
8. Daha iki dildə (rus və ingilis dillərində) xülasə və açar sözlər. Əgər məqalə rus, yaxud ingilis dilində yazılıbsa, Azərbaycan dilində xülasə mütləqdir.
9. Rəyçilər
   - Rəylərin mətni rəy verənlərin imzası, tarixi göstərilmək şərti ilə kağızda redaksiyaya təqdim edilməlidir.
   - Rəy təqdim edilməyən məqalələrə redaksiya tərəfindən də rəy verilə bilər.
10. Məqalənin mətni, foto, not nümunələri və cədvəllər ilə birgə
11. Ədəbiyyat siyahısı

Təqdim edilən məqalələrin formatı

- Çap olunmuş əlyazma (1 nüsxə) və elektron variant (fləş kartda) 2 rəy ilə birlikdə təqdim edilir; rəyçinin elmi dərəcəsi müəllifinkindən yüksək olmalıdır. Əlyazma geri qaytarılmır. Məqalə e-poçtla da göndərilə bilər: azconservatory@gmail.com
- Məqalə Azərbaycan dilində, yaxud rus və ingilis dillərində Times New Roman şriftində, 12-lik ölçüdə, 1 intervalı ilə yazılmalıdır. Hər sözdən, nöqtə və vergüldən sonra bir boşluq qoyulur; mətnə tərtibat verilmir.
- Məqalənin başlığı 8 sözdən artıq olmamalıdır. Məqalənin həcmi ədəbiyyat siyahısı, not nümunələri və xülasələrlə birlikdə 10-20 A4 səhifə olmalıdır.
- Not nümunələri not proqramlarında (Sibelius, MuseScore, Finale) yığılmalıdır.
- İstinadlar və ədəbiyyat siyahısı APA standartına uyğun tərtib edilməlidir.
- Sadalanan tələblərə cavab verməyən məqalə geri qaytarıla bilər.

Elmi jurnalda çap olunmaq üçün ilk əvvəl məqalənin elmi dəyəri müəyyənləşdirilir. Elmi məqalədə problem qoyulmalı, həll yolları göstərilməli və nəticələr çıxarılmalıdır. Məlum faktları və sitatları sadalamaq məqaləyə elmi dəyər vermir. Başqasının fikrini istinadsız vermək plagiat sayılır; plagiat aşkarlanan məqalə dərhal geri qaytarılır. Elmi dəyərlə bağlı mübahisəli hallarda redaksiya ekspert şurasının fikri əsasında qərar verir. Başqa dərgidə çap olunmuş məqalələr qəbul edilmir.

Требования научного журнала "Консерватория"

Научный журнал "Консерватория" был утвержден на заседании Учёного Совета Азербайджанской Национальной Консерватории (Протокол № 7 от 26 декабря 2008 года). Журнал был зарегистрирован Министерством Юстиции Азербайджанской Республики в 17.12.2008г. (Сертификат № 2770). Print ISSN 2518-7074, Online ISSN 2522-1612. Журнал входит в утвержденный ВАК Азербайджанской Республики перечень ведущих рецензируемых научных журналов.

Структура статьи:

1. Заголовок статьи **(ПРОПИСНЫМИ БУКВАМИ, полужирным шрифтом)**
2. Фамилия, имя, отчество автора **(ФАМИЛИЯ, Имя Отчество)**
3. Фотография автора (jpeg, jpg или png; прилагается к письму)
4. Статус (учёное звание, учёная степень либо организация, где автор является диссертантом или докторантом) и должность (место работы, адрес учреждения)
5. Адрес электронной почты
6. Код ORCID
7. Аннотация на языке статьи (4-5 предложений) и ключевые слова (5-8 слов или словосочетаний)
8. Аннотация и ключевые слова ещё на двух языках (русском и английском); для статей на русском или английском аннотация на азербайджанском обязательна.
9. Рецензенты
   - Тексты рецензий должны быть представлены в редакцию в бумажном виде с подписью рецензента и указанием даты.
   - Статьи без рецензий могут быть отрецензированы самой редакцией.
10. Текст статьи вместе с фотографиями, нотными примерами и таблицами
11. Список литературы

Формат представленных статей:

Распечатанная рукопись статьи (1 экземпляр) и её электронная версия (на флэш-карте) представляются вместе с 2 рецензиями; учёная степень рецензента должна быть выше, чем у автора. Рукопись не возвращается. Статью можно также отправить по электронной почте: azconservatory@gmail.com. Статья должна быть написана на азербайджанском, русском или английском языке шрифтом Times New Roman, размер 12, интервал 1; после каждого слова, точки и запятой ставится один пробел, оформление текста не допускается. Заголовок – не более 8 слов. Объём статьи вместе со списком литературы, нотными примерами и аннотациями – 10-20 страниц формата A4. Нотные примеры набираются в одной из нотных программ (Sibelius, MuseScore, Finale). Ссылки в тексте и список литературы оформляются по стандарту APA. Статьи, не отвечающие требованиям, могут быть возвращены авторам.

Научное значение статьи

Для публикации прежде всего определяется научная ценность статьи. В статье должна быть поставлена проблема, показаны пути её решения и сделаны выводы. Перечисление известных фактов и цитат не придаёт статье научной ценности. Использование чужих мыслей и идей без ссылок считается плагиатом; статья, в которой обнаружен плагиат, немедленно возвращается автору. При затруднениях в определении научной ценности статьи редакция принимает решение на основе мнения экспертного совета. Статьи, уже опубликованные в других изданиях, не принимаются.

Requirements for “Conservatory” scientific journal

“Conservatory” scientific journal was approved by Azerbaijan National Conservatory Scientific Board and registered by the Ministry of Justice of Azerbaijan Republic on 17.12.2008 under Certificate number 2770. Print ISSN 2518-7074, Online ISSN 2522-1612. The journal is included in the list of leading peer-reviewed scientific journals approved by the Higher Attestation Commission of the Republic of Azerbaijan.

Structure of an article

1. Title of the article **(IN CAPITAL LETTERS, bold)**
2. Author’s full name **(SURNAME, First name Patronymic)**
3. Author’s photograph (jpeg, jpg or png, attached to the e-mail)
4. Status (academic title and degree, or the institution where the author is a doctoral candidate) and position (place of work, address of the institution)
5. E-mail address
6. ORCID iD
7. Abstract in the language of the article (4-5 sentences) and keywords (5-8 words or phrases)
8. Abstract and keywords in two more languages (Russian and English). If the article is written in Russian or English, an abstract in Azerbaijani is mandatory.
9. Reviewers
   - Reviews are submitted on paper, signed and dated by the reviewers.
   - Articles without reviews may be reviewed by the editorial office.
10. Text of the article, together with photographs, music examples and tables
11. List of references

Format of the submitted article

- The printed manuscript (1 copy) and its electronic version (on a flash drive) are submitted with 2 reviews; the reviewer’s academic degree must be higher than the author’s. Manuscripts are not returned. The article may also be sent by e-mail to azconservatory@gmail.com. Articles are written in Azerbaijani, Russian or English in Times New Roman, 12 pt, single-spaced, with one space after each word, full stop and comma, and without text formatting. The title should not exceed 8 words; the article, including references, music examples and abstracts, should be 10-20 A4 pages. Music examples are typeset in a notation program (Sibelius, MuseScore, Finale). In-text citations and the reference list follow the APA style. Non-compliant articles may be returned.

Scientific impact of the article

The scientific value of an article is assessed first: it should pose a problem, show ways of solving it and draw conclusions. Merely listing known facts and quotations does not give it scientific value.

Using others’ ideas without citation is plagiarism; an article containing plagiarism is returned immediately. In disputed cases, the editorial board decides on the basis of the board of experts’ opinion. Articles published elsewhere are not accepted.

KONSERVATORİYA

ELMİ NƏŞR

№ 2 (71)

Bakı – 2026

http://konservatoriya.az/

“Konservatoriya” jurnalı 2026 № 2 (71), 116 s.

Yığılmağa verilmişdir: 27.06.2026
Çapa imzalanmışdır: 29.06.2026
Tiraj 250 nüsxə, sifariş № 247

“Mütərcim” NPM-də çap olunmuşdur.

Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru